Xalqın qəzeti!

# Xalq qəzeti

№ 208 (30902) 28 sentyabr 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Xalqımız Zəfər şəhidlərini dərin ehtiramla yad etdi

## Prezident İlham Əliyev Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad edib



**Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anım Günü ilə əlaqədar Gəncə Memorial Kompleksində saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad edib.**

## Prezident İlham Əliyev 27 Sentyabr Anım Günü ilə əlaqədar paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

## Birinci vitse-prezident Mehriban Əliyevanın 27 Sentyabr Anım Günü ilə əlaqədar paylaşımı




**Birinci vitse-prezident Mehriban Əliyeva 27 Sentyabr Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir:** *"Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır! Allah bütün şəhidlərimizə rəhmət eləsin!".*

## Prezident İlham Əliyevin ABŞ-a səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-a işgüzar səfəri başa çatıb.**

***AZƏRTAC***

## Prezidentin BMT manifesti – dünyaya Azərbaycan mesajı

*Yaxud qalib dövlətin ümumi sülh və bəşəri ədalət çağırışı*



**"Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq". Bu fikir Prezident İlham Əliyevin sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışının son cümləsidir. Ümumi şəkildə yanaşsaq, dövlətimizin başçısının nitqi Azərbaycanın dünya üçün vacibliyi manifesti idi. Bu manifest son dərəcə əsaslandırılmış şəkildə bəyan edildi.**

(ardı 6-cı səhifədə)

## Ali Baş Komandanın müharibə startegiyası



Səhifə ⇨ 9

## Gürcüstan milli maraqlarını qorumağa qadirdir



Səhifə ⇨ 8

## Xalqımız Zəfər şəhidlərini ehtiramla yad etdi



Səhifə ⇨ 7

## Azərbaycan diplomatiyasının Vaşinqton akkordları



Səhifə ⇨ 6

# Prezident İlham Əliyevin Yevlaxa və Gəncəyə səfəri

## Yevlax Olimpiya Kompleksi istifadəyə verilib






Azərbaycanın ev sahibliyi etdiyi Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində təşkil olunacaq.

Son illərdə idman sahəsində görülmüş məqsədyönlü işlər nəticəsində Azərbaycan beynəlxalq yarışların keçirildiyi əsas mərkəzlərdən birinə çevrilib. Müxtəlif idman yarışları üzrə Dünya və Avropa çempionatları, həmçinin Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 kimi mötəbər tədbirlərin uğurla təşkili Azərbaycanın bu sahədə yüksək təşkilatçılıq bacarığını nümayiş etdirib. Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarının Azərbaycanda keçirilməsi də ölkəmizə beynəlxalq idman ictimaiyyəti tərəfindən olan etimadın təzahürüdür.

Şübhəsiz ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınması, mötəbər idman tədbirlərinin keçirilməsi üçün ölkəmizin seçilməsi həm də paytaxt Bakı ilə yanaşı, regionlarımızda müasir idman infrastrukturunun yaradılması ilə də bağlıdır.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Yevlax Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.**

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, tikintisinə 2024-cü ildə başlanılan kompleksin ərazisi 5,8 hektardır. Burada açıq havada idman meydançaları, stadion, 1100 tamaşaçı yerlik universal idman, güləş, cüdo, bədii gimnastika, boks, kikboksinq, taekvondo, karate, fitnes və trenajor zalları, üzgüçülük hovuzu yaradılıb. Bunlardan başqa, kompleksdə iclas zalı, kafe, hakim, məşqçilər, həkim, şərhçilər üçün otaqlar, restoran, 42 yerlik mehmanxana binası da fəaliyyət göstərəcək.



## Gəncə Memorial Kompleksinin açılışı




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də – Anım Günündə Gəncə Memorial Kompleksinin açılışında iştirak edib.**

Əvvəlcə dövlətimizin başçısı memorial lövhənin qarşısına əklil qoydu.

Azərbaycan Prezidenti Anım Günü ilə əlaqədar Gəncə Memorial Kompleksində saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etdi.

Sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına kompleks barədə ətraflı məlumat verdi.

Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında təməlini qoyduğu bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır.

**(ardı 3-cü səhifədə)**



## Prezident İlham Əliyev “BakuBus”un Gəncə Avtoparkının açılışında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də “BakuBus” MMC-nin Gəncə Avtoparkının açılışında iştirak edib.**

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlətimizin başçısına avtoparkda yaradılan şərait barədə məlumat verdi.

Üç yüz yerlik avtobus parkının inşasına bu ilin yanvarında başlanılıb. Ümumi sahəsi 10 hektar olan parkda texniki baxış və təmir postları, avtomatlaşdırılmış uçot sistemli yanacaq təsərrüfatı, saatda 60 avtobusun yuyulması gücünə malik kompleks inşa edilib. Avtobus parkının yaradılması ilə 675 nəfər işlə təmin olunub. Onlardan 553 nəfəri sürücü, 122 nəfəri isə inzibati və texniki heyətdir.

“BakuBus” MMC Gəncə şəhərində 18 mövcud və 2 yeni marşrut xətti üzrə fəaliyyət göstərəcək. Şəhərə yüksək ekoloji standarta - EURO6-ya cavab verən 280 avtobus gətirilib ki, onlardan da 45-i 54, 186-sı 63, 49-u isə 102 sərnişin tutumuna malikdir.

Bu layihənin həyata keçirilməsi, ilk növbədə, paytaxt Bakıdan sonra respublikanın ən böyük şəhəri olan Gəncənin nəqliyyat-sərnişin daşıma infrastrukturunun müasirləşdirilməsi baxımından çox mühüm rol oynayır. Bu, eyni zamanda, sərnişinlərin rahat, təhlükəsiz şəkildə mənzilbaşına çatmasına imkan yaradır, şəhərin nəqliyyat parkının yenilənməsinə böyük töhfə verir. Həmçinin yeni iş yerlərinin açılmasında da belə layihələrin rolu önəmlidir.

Gəncə şəhəri üzrə aparılan genişmiqyaslı təhlil və araşdırmalar nəticəsində marşrut şəbəkəsi yenidən formalaşdırılıb. Mövcud 32 marşrut xəttində optimallaşdırma aparılıb, 22 marşrut xəttinin fəaliyyət göstərməsi müəyyən olunub.

Əhəmiyyətli yeniliklərdən biri də ictimai nəqliyyatda qabaqcıl rəqəmsal texnologiyaların tətbiqidir. Gəncədə fəaliyyət göstərən bütün avtobuslarda gedişhaqqını “CityCard” nağdsız ödəniş sistemi, istənilən bank kartları, həmçinin mobil ödəniş vasitələri ilə ödəmək mümkündür.

Sərnişindaşıma sahəsinin optimallaşması çərçivəsində Dəmiryol Vağzalının qarşısında Nəqliyyat Mübadilə Məntəqəsi yaradılıb. Burada dəmir yolu ilə avtomobil nəqliyyatının qarşılıqlı əlaqəsi öz əksini tapıb.

Əhalinin gediş-gəlişi və sıxlığın çox olduğu ərazilərdə 34 müasir dayanacaq pavilyonu quraşdırılıb.

Yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində 97 küçədə asfalt örtüyünün yenilənmə işləri aparılıb, 128 kilometr xətlənmə işləri icra olunub. Şəhərdə təhlillər aparılaraq mikromobillik zolaqlarının salınması üçün uyğun yerlər müəyyənləşdirilib.

Taksi nəqliyyat vasitələri üçün cəlbetmə məntəqələrinin müəyyən edilməsi istiqamətində də işlər aparılıb və 10 ünvanda taksi duracağı üçün yer təyin olunub.

Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə regionlarımızın müasirləşdirilməsi, əhaliyə göstərilən xidmət səviyyəsinin artırılması və ümumilikdə, bölgələrimizin sosial-iqtisadi inkişafının davamlılığının təmin edilməsi istiqamətində dövlətimiz tərəfindən atılan addımların göstəricisidir.







# Prezident İlham Əliyevin Yevlaxa və Gəncəyə səfəri

## Gəncə Memorial Kompleksinin açılışı






**(əvvəli 2-ci səhifədə)**

Bu ilin martında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qızları Leyla və Arzu Əliyeva ilə birlikdə layihə ilə tanış olub, avqust ayında isə Prezident İlham Əliyev və birinci xanım kompleksdə görülən işlərin gedişinə baxış keçiriblər.

Xatırladaq ki, cəbhə xəttindən 80 kilometr aralıda yerləşən Gəncə şəhəri Vətən müharibəsi dövründə oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələrinin "Toçka-U", "Smerç", "SCUD" və digər raket sistemlərindən atəşə məruz qalıb. Bu amansız hücumlar nəticəsində 6-sı uşaq olmaqla, 26 mülki şəxs həyatını itirib, 142 dinc sakin isə yaralanıb.

Bildirildi ki, Memorial məhz həmin zərbələrdən birinin endirildiyi ərazidə – yaşayış binalarının yerində inşa olunub və 4 hektar sahəni əhatə edir. Orijinal memarlıq həlli ilə seçilən abidə spiralvari forması ilə raketin yerdə buraxdığı iz – krateri simvolizə edir. Kompleksin açıq meydanında isə dağıdılmış binaların qalıqları xüsusi instalyasiya şəklində qorunub saxlanılıb.

Aypara formalı ikimərtəbəli binanın ümumi sahəsi 2400 kvadratmetrdir. Birinci mərtəbədə muzey ekspozisiyası, ikinci mərtəbədə isə seminar, təlim və müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş çoxfunksiyalı zal yerləşir.



Muzeydə "XX əsrin əvvəli", "Deportasiya və məcburi köçkünlük", "Soyqırımı və kütləvi qırğınlar", "Atəşkəs və Vətən müharibəsi dövrü", "İtkin düşənlər, kütləvi məzarlıqlar, mina terroru" və "İşıqlı gələcəyə doğru" mövzularına həsr olunmuş zallar fəaliyyət göstərir.

Ekspozisiya ziyarətçilərə əvvəlcə XX əsrin əvvəllərində baş verən faciələri, o cümlədən 1918-ci ilin mart soyqırımını tarixi faktlarla təqdim edir. Burada, həmçinin 1948–1953-cü illərdə soydaşlarımızın Qərbi Azərbaycandan kütləvi deportasiyası əks etdirilib. İnteraktiv bölmədə arxiv materialları, tarixi sənədlər və dağıdılmış mədəni irs nümunələri ilə tanış olmaq mümkündür.

Növbəti bölmələrdə 1987–1994-cü illərdə Azərbaycan xalqının üzləşdiyi etnik təmizləmə cinayətləri, dinc əhaliyə qarşı törədilmiş soyqırımlar və sistemli qırğınlar haqqında məlumatlar yer alıb. Muzeyin ayrıca hissəsi isə müasir dövrdə – atəşkəs illərində, Vətən müharibəsi günlərində və ondan sonrakı mərhələdə mülki əhalinin məqsədli şəkildə hədəfə alınması faktlarına həsr olunub.

Ekspozisiyanın son hissəsi uzun illər davam edən haqsızlıqlara baxmayaraq, mübarizliyini qoruyan Azərbaycan xalqının əzmkarlığının və qələbə əzminin təntənəsinə həsr olunub.

Sonra Prezident İlham Əliyev Gəncə Memorial Kompleksində Ermənistanın raket hücumu zamanı hər iki valideynini itirən Nilay Əliyeva və onun babası Zahid Babazadə ilə görüşdü.

*

Qeyd edək ki, bu memorial yalnız bir abidə deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış çağırışdır. Ermənistanın dinc əhalimizə qarşı törətdiyi raket hücumları təkcə Cenevrə konvensiyalarını deyil, həm də bəşəriyyətin ən fundamental mənəvi dəyərlərini pozurdu. Azərbaycan isə müharibə dövründə beynəlxalq hüququn tələblərinə sadiq qalaraq yalnız legitim hərbi hədəfləri vurub, qisasını döyüş meydanında alıb.

Gəncə Memorial Kompleksi həm də gələcək nəsillər üçün tariximizin canlı yaddaş salnaməsi olacaq bir məkandır. Bu şərəfli tarixi isə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı yazdı.

Allah şəhidlərimizə rəhmət eləsin!

## Gəncə Stadionu istifadəyə verilib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Gəncə Stadionunun açılışında iştirak edib.**

Dövlətimizin başçısına stadion barədə məlumat verildi.

Bildirildi ki, ərazisi 10 hektardan çox olan stadionun tamaşaçı tutumu 15 min 343 nəfərdir. Ərazidə AFFA tərəfindən köməkçi məşq meydançaları və futbol akademiyasının binası tikilib. Stadionda futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və digər zəruri sahələr yaradılıb.



UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən arena müasir işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik sistemləri ilə təchiz olunub.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü ilin oktyabrında stadionun tikintisi ilə bağlı Sərəncam imzalayıb. Onun təməli isə ötən ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulub. Bu ilin avqustunda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva stadionda aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Beynəlxalq səviyyədə idman ölkəsi kimi nüfuzunu getdikcə möhkəmləndirən Azərbaycanın bölgələrində bu sahənin inkişafı dövlətimizin prioritet istiqamətlərindən biridir. Son illərdə regionlarda tikilən və yenidən qurulan idman kompleksləri yerlərdə idmanın kütləviləşməsinə mühüm töhfə verir, gənc nəslin sağlam böyüməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı mötəbər idman yarışlarına ev sahibliyi etməklə, özünün yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirir. Belə müasir idman arenalarının istifadəyə verilməsi ölkəmizin digər bölgələrində olduğu kimi, Gəncədə də istər yerli, istərsə də beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsinə hərtərəfli şərait yaradacaq.

***AZƏRTAC***

# Azərbaycan "Rəqəmsal İpək yolu"nun mərkəzi qovşağıdır

**Prezident İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında ölkəmizin rəqəmsal bağlantılar sahəsində əməkdaşlıq üçün böyük potensialı olduğunu bildirib. Dövlətimizin başçısı, eyni zamanda, "Rəqəmsal İpək yolu" kimi əhəmiyyətli layihə vasitəsilə rəqəmsal transformasiya təşəbbüsünün uğurla gerçəkləşdiyini, bunun isə respublikamızın əsas regional rəqəmsal mərkəzə çevrilməsinə şərait yaratdığını vurğulayıb. Ölkə rəhbəri, həmçinin bu layihəyə Xəzər dənizinin dibi ilə qabaqcıl fiber-optik kabel şəbəkəsinin qurulması planlarının da daxil olduğunu xatırladıb.**

Azərbaycan liderinin bu fikrinə əsalanıb qeyd edə bilərik ki, müasir dövrün əsas inkişaf xətti rəqəmsal transformasiya və süni intellektin iqtisadi modellərə inteqrasiyası ilə müəyyən olunur. İnformasiya texnologiyalarının inkişafı dövlətlərin rəqabət qabiliyyətinin formalaşmasında əsas amillərdən biri kimi diqqətdə saxlanılır.

Bu baxımdan Azərbaycan da "rəqəmsal iqtisadiyyat" anlayışını milli inkişaf strategiyasının mərkəzinə yerləşdirib. 2022–2026-cı illəri əhatə edən "Yeni inkişaf mərhələsində Azərbaycan" strategiyasında rəqəmsal infrastrukturun genişləndirilməsi, dövlət xidmətlərinin elektronlaşdırılması, innovativ sahibkarlığın təşviqi prioritet istiqamətlər kimi müəyyənləşdirilib.

Prezident İlham Əliyevin BMT tribunasından səsləndirdiyi fikirlər də göstərir ki, Azərbaycan təkcə daxili rəqəmsallaşma siyasəti yürütmür, həm də region ölkələri arasında texnoloji inteqrasiya və məlumat axınının mərkəzinə çevrilməyi qarşısına məqsəd qoyub. Bu isə beynəlxalq aləmdə rəqəmsal diplomatiya və beynəlxalq əməkdaşlıq baxımından mühüm strateji istiqamət olaraq yüksək dəyərləndirilib.

Xatırladaq ki, "Rəqəmsal İpək yolu" təşəbbüsü respublikamız üçün sadəcə texnoloji layihə deyil, həm də yeni nəsil iqtisadi-siyasi əlaqə modelidir. Bu layihənin əsas məqsədi Avropa və Asiyanı birləşdirən müasir, etibarlı və yüksək ötürmə qabiliyyətinə malik fiber-optik şəbəkə qurmaqdır. Tarixi İpək yolu üzərində yerləşən Azərbaycan bu gün də qədim ticarət və kommunikasiya xəttinin müasir rəqəmsal ekvivalentinin mərkəzinə çevrilməkdədir.

"Rəqəmsal İpək yolu" layihəsinin mühüm hissəsi olan Transxəzər kabel xətti Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan daxil olmaqla bir sıra ölkələrdən keçən rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasını nəzərdə tutur. Kabel xətti tikintisinin bir neçə mərhələdə həyata keçiriləcəyi nəzərdə tutulur. Bu mərhələlərə sahilyanı ərazilərin və dəniz dibinin qiymətləndirilməsi, yüksək keyfiyyətli və davamlı kabellərin layihələndirilməsi və istehsalı, onların daşınması və quraşdırılması daxildir. "AzərTelecom" və "Kazakhtelecom" şirkətləri tikinti işlərini 2026-cı ilin sonuna qədər yekunlaşdırmağı planlaşdırır.

Transxəzər kabel xətti layihəsi Azərbaycanın magistral internet provayderi olan "AzərTelecom" şirkəti və Qazaxıstanın milli telekommunikasiya operatoru "Kazakhtelecom" arasında tərəfdaşlıq çərçivəsində həyata keçirilir. ABŞ-ın "Pioneer Consulting" şirkəti isə layihəyə texniki nəzarət və məsləhət dəstəyi göstərir.

"Rəqəmsal İpək yolu" layihəsi Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə məlumat mübadiləsi ehtiyaclarını ödəyəcək region ölkələri üçün strateji əhəmiyyətli bir layihədir. Təsadüfi deyil ki, layihə ABŞ-da Qlobal Strateji İnfrastruktur Liderlik Forumunda Asiyada 5 ən yaxşı strateji infrastruktur tədbirindən biri kimi seçilib. Belə bir strateji layihənin işə düşməsi, heç şübhəsiz, Qafqaz, Mərkəzi və Cənubi Asiya da daxil olmaqla bütün regionda rəqəmsallaşmanın inkişaf etdirilməsinə və rabitənin daha geniş yayılmasına təkan verəcək.

Ekspertlərin fikrincə, layihənin uğurlu icrası region dövlətləri üçün bir neçə strateji nəticə doğuracaq:

– İlk növbədə, informasiya təhlükəsizliyi baxımından müstəqillik əldə ediləcək. Belə ki, region ölkələri məlumat axınını üçüncü tərəf infrastrukturlarından asılı olmadan gerçəkləşdirə biləcək;

– bu məsələdə iqtisadi inteqrasiya da mühüm önəm daşıyır, məlumat mübadiləsi sürətlənir, e-ticarət və elektron xidmətlər üçün vahid bazar formalaşır;

– sözügedən layihənin uğurlu icrasında texnoloji sinerji də əsas şərtlərdən biridir.



Belə ki, fiber-optik şəbəkə bulud texnologiyaları, süni intellekt və böyük verilənlər (big data) üzrə əməkdaşlıq üçün baza rolunu oynayır.

Azərbaycan bu istiqamətdə həm Şərq – Qərb, həm də Şimal – Cənub istiqamətlərində rəqəmsal tranzit ölkə kimi çıxış edir. Bu, həm coğrafi mövqeyin, həm də dövlətin məqsədyönlü siyasətinin nəticəsidir.

Prezident İlham Əliyev çıxışında xüsusi qeyd etdiyi kimi, "Rəqəmsal İpək yolu" layihəsinin əsas komponentlərindən biri Xəzər dənizinin dibi ilə çəkiləcək fiber-optik kabel şəbəkəsidir. Bu infrastruktur yalnız Azərbaycan üçün deyil, bütövlükdə, regionun məlumat mübadiləsi sistemində də yeni səhifə açacağı proqnozlaşdırılır.

Layihə Azərbaycan, Qazaxıstan və digər Xəzəryanı ölkələr arasında yüksək sürətli data ötürülməsini təmin edəcək. Bununla da, Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına çıxışı asanlaşacaq, Avropa – Asiya məlumat axınının təhlükəsizliyi və sabitliyi təmin olunacaq. Bu, həm də Azərbaycanın tranzit statusunu yalnız enerji və logistika deyil, eyni zamanda, informasiya texnologiyaları sahəsində də möhkəmləndirəcək. Texnoloji baxımdan bu layihə həm də "optik magistral" kimi fəaliyyət göstərəcək və qlobal internet xəritəsində yeni bir "qovşaq nöqtəsi" yaradacaq. İnformasiya axını London – Bakı – Almatı marşrutu ilə hərəkət edərək Çin və Avropa arasında yeni alternativ data dəhlizi formalaşdıracaq.

Onu da qeyd edək ki, ölkəmizdə son illər ərzində həyata keçirilən dövlət proqramları rəqəmsal sahədə institusional bazanı möhkəmləndirib. "ASAN xidmət", "e-Gov" platforması, "AzInTelecom"un bulud xidmətləri, "AzDataCom" şəbəkəsi və "Data Center"lərin yaradılması Azərbaycanın informasiya infrastrukturunu beynəlxalq standartlara uyğun səviyyəyə yüksəldib. Bu proses təkcə dövlət idarəçiliyinin səmərəliliyini artırmır, həm də özəl sektorun inkişafı üçün şəffaf və rəqabətli mühit yaradır. İnnovasiya Agentliyi, "Startup Azərbaycan" platforması və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşəbbüsləri sayəsində ölkəmiz regionda texnoloji yeniliklərin tətbiqi baxımından öncül mövqedədir.

Azərbaycanın bu sahədə qazandığı təcrübə bir çox inkişaf etməkdə olan dövlətlər üçün model xarakteri daşıyır. BMT tribunasından səslənən çağırış da bu liderlik vizyonunun beynəlxalq miqyasda tanıdılması və tərəfdaşlıq imkanlarının genişləndirilməsinə yönəlib. Prezident İlham Əliyevin "ölkəmiz rəqəmsal bağlantılar sahəsində əməkdaşlıq üçün böyük potensiala malikdir" fikri də Azərbaycanın beynəlxalq səviyyədə tərəfdaşlığa açıq mövqeyini göstərir. Bu, həm də ölkəmizin rəqəmsal diplomatiya strategiyasının əsas sütunlarından biridir.

Xatırladaq ki, Azərbaycan bu sahədə BMT-nin Davamlı İnkişaf Məqsədləri, xüsusilə də "sənayeləşmə, innovasiya və infrastruktur" istiqaməti ilə tam uzlaşır. Fiber-optik şəbəkələr, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, süni intellektin idarəetmədə tətbiqi kimi təşəbbüslər dayanıqlı inkişaf modelinin vacib elementlərinə çevrilib. Bu baxımdan, respublikamızın təqdim etdiyi "Rəqəmsal İpək yolu" layihəsi qısa müddət ərzində təkcə regional deyil, qlobal miqyasda da birgə fəaliyyət üçün platforma rolunu oynayıb. Məlumat təhlükəsizliyi, texnoloji suverenlik və rəqəmsal iqtisadiyyatın ədalətli bölüşdürülməsi kimi məsələlərdə BMT çərçivəsində əməkdaşlıq üçün bu layihə yüksək qiymətləndirilib.

BMT Baş Assambleyasında səsləndirilən fikirlər bir daha göstərir ki, Azərbaycan artıq enerji ixracatçısı olmaqla yanaşı, rəqəmsal bağlantı ixracatçısına da çevrilməkdədir. "Rəqəmsal İpək yolu" təşəbbüsü və Xəzər dənizinin dibi ilə çəkiləcək fiber-optik kabel layihəsi Azərbaycanın texnoloji coğrafiyasını dəyişməklə yanaşı, Avrasiyanın rəqəmsal gələcəyinə strateji töhfə verəcək. Bu, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin, müasir çağırışları düzgün dəyərləndirməsinin və Azərbaycanın qlobal iqtisadi sistemdə yeni mövqe qazanmasının bariz göstəricisidir.

Beləliklə, Azərbaycan artıq yalnız enerji və nəqliyyat mərkəzi deyil, həm də rəqəmsal bağlantıların, bilik axınının və texnoloji tərəfdaşlığın regional qovşağı kimi formalaşır. Bu isə ölkəmizin XXI əsrin innovativ xəritəsində strateji mövqeyini daha da möhkəmləndirir.

***V.BİNYATOĞLU***
***XQ***

# Dövlət və hökumət rəsmiləri Bakı Zəfər parkında





**27 Sentyabr Anım Günündə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, Milli Məclisin Sədri Sahibə Qafarova, digər dövlət və hökumət rəsmiləri Bakıdakı Zəfər parkında olublar.**

Dövlət və hökumət rəsmiləri xatirə daşının önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsinin başladığı gün - 27 sentyabr Anım Günü kimi qeyd edilir. Anım Günündə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır.

*XQ*




## Azərbaycan Ordusunda Anım Günü mərasimləri



**Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, 27 Sentyabr - Anım Günü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib. Bu barədə Müdafiə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən məlumat verilib.**

Bildirilib ki, anım mərasimlərində ümummilli lideri Heydər Əliyevin və bütün şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Dövlət Himni oxunub.

Tədbirlərdə çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı şanlı Qələbənin tarixi əhəmiyyətindən danışaraq, döyüşlərdə şəhidlik zirvəsinə yüksələn, eləcə də yaralanaraq sağlamlığını itirən soydaşlarımızın Vətənə şərəfli xidmətlərindən ehtiramla bəhs ediblər.

Tarixə qızıl hərflərlə yazılan şanlı Zəfərimizin qazanılmasında Azərbaycan xalqının rolu, qəhrəman oğullarımızın igidlik və şücaət nümunələri iştirakçıların diqqətinə çatdırılıb.

Mərasimlərdə Vətən müharibəsi döyüşlərinin, antiterror əməliyyatı da daxil olmaqla postmüharibə dövründə Ordumuzun həyata keçirdiyi uğurlu əməliyyatların regionda sülhün və əmin-amanlığın bərqərar olunmasına misilsiz töhfələr verdiyi xüsusi vurğulanıb.

Silsilə tədbirlər çərçivəsində Şəhidlər xiyabanlarını ziyarət edən hərbi qulluqçular şəhid məzarlarının üzərinə gül qoyaraq Azərbaycan Respublikasının azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən əziz soydaşlarımıza öz ehtiramlarını ifadə ediblər.

Şəxsi heyət üçün hərbi vətənpərvərlik mövzusunda mədəni-kütləvi tədbirlər təşkil olunub, Vətən müharibəsi haqqında sənədli filmlər və videoçarxlar nümayiş etdirilib, döyüş iştirakçıları xatirələrini bölüşüblər.

*XQ*

## Azad Qarabağda şəhidlərə ehtiram



**27 Sentyabr – Anım Günündə Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi Xankəndi, Xocalı, Ağdərə, Hadrud və Laçında ehtiramla anılıb. Saat 12:00-da nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən siqnallar verilib, polis əməkdaşları hərbi salamla şəhidlərimizin xatirəsini anıblar.**

Anım mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin Xüsusi Nümayəndəliyinin, Bərpa-Tikinti və İdarəetmə Xidmətinin, hüquq-mühafizə orqanlarının, ANAMA-nın əməkdaşları, hərbçilər, tikinti-quruculuq işlərində çalışan işçilər də iştirak ediblər.

*XQ*

## Saat 12:00 – Ümumölkə sükut dəqiqəsi

**Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi sentyabrın 27-də saat 12:00-da ölkəmizin bütün ərazisində bir dəqiqəlik sükutla yad olunub.**

Ölkə əhalisi şəhid əsgər və zabitlərimizin ruhları qarşısında baş əyib, onların xatirəsinə dərin ehtiramlarını bir dəqiqəlik sükutla ifadə edib. Sükut dəqiqəsi zamanı dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları verilib.

*XQ*




## FHN kollektivi şəhidləri yad edib



**Sentyabrın 27-də Anım Günü münasibətilə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və nazirliyin kollektivi Bakıda Zəfər parkını ziyarət ediblər.**

Xatirə daşının önünə gül dəstələri qoyulub, ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

*XQ*

## Təhlükəsizlik orqanları rəhbərləri anım mərasimində



**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev və Xarici Kəşfiyyat Xidmətinin (XKX) rəisi general-polkovnik Orxan Sultanov 27 Sentyabr – Anım Günü ilə əlaqədar Bakı şəhərində yerləşən Zəfər parkını ziyarət edib, xatirə abidəsinin önünə gül dəstələri düzərək şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla anıblar.**

Bu barədə DTX-nin mətbuat xidmətindən məlumat verilib.

*XQ*

## Baş Prokurorluğun rəhbərliyi Vətən qurbanlarını yad edib



**Baş prokuror Kamran Əliyev və prokurorluğun rəhbər heyəti şəhidlərin xatirəsini ehtiramla yad edərək abidə önünə gül dəstələri düzüblər.**

*XQ*

# Sobhaninin sonuncu "antisülh" nəğməsi

## *Diplomatik vida, yoxsa təxribata sadiqlik?*









**Zəngəzur dəhlizi (TRIPP) Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən strateji nəqliyyat yoludur. Bu layihə Azərbaycanın təşəbbüsü ilə həyata keçirilmiş və regionda nəqliyyat əlaqələrinin gücləndirilməsi, iqtisadi inkişafın təmin edilməsi məqsədini daşıyan uzunmüddətli strateji planın bir hissəsidir. Layihəyə region ölkələri tərəfindən də dəstək ifadə olunub.**

Əvvəllər Zəngəzur dəhlizindən (TRIPP) ən çox narahat olan İran idisə, zamanla o da layihəni qəbul etməyə başlayıb. Buna baxmayaraq, İranın Ermənistandakı səfiri Mehdi Sobhaninin dəhliz ətrafındakı "narahatlığı" bitib-tükənmir. Bir vaxtlar "Zəngəzur dəhlizi olmayacaq!" deyən Sobhani, indi bəzi "risk"ləri dilə gətirir. Ümumiyyətlə, Mehdi Sobhani Ermənistanda səfir işlədiyi iki il üç ayda obyektiv mövqeyi ilə deyil, Azərbaycana qarşı mənfi açıqlamaları ilə tanınıb. Onun çıxışlarında hər zaman anti-Azərbaycan ritorikası özünü göstərib. Ermənistanın destruktiv siyasətinə bəraət qazandırmaq, az qala, Sobhaninin "hobbi"sinə çevrilmişdi. Diplomatik fəaliyyəti ərzində dəfələrlə Azərbaycana qarşı dolayı və açıq "kin püskürən" Sobhani vida mərasimində də bu "antisülh missiyasından" əl çəkməyib.

Diplomatların vida mərasimləri adətən xoş niyyət və arzularla, gələcəyə ümidlə müşayiət olunur. Lakin Ermənistanı tərk etməyə hazırlaşan səfir Mehdi Sobhani bu ənənəni də pozub. Onun iki gün bundan əvvəl keçirdiyi mətbuat konfransı vida nitqindən çox, bölgədə sülhə qarşı yönəlmiş təxribat manifestinə bənzəyib. Sobhani həmişəki kimi, bölgədə sabitliyə kölgə salan fikirlər səsləndirib. O, əvvəlcə Zəngəzur dəhlizini (TRIPP) "Dünyanın kəsişməsi" layihəsi adlandırıb, bu təşəbbüsün gerçəkləşməsinə dəstəyini ifadə edib. Həmçinin sabiq səfir deyib: "Biz bütün ölkələrə regionda mövcud nəqliyyat marşrutlarından istifadə etməyə imkan verəcək "Dünyanın kəsişməsi" (Zəngəzur dəhlizi–TRIPP) layihəsini dəstəklədiyimizi bildirdik. Avqustun 8-dəki bəyanatda buna cavab aydın görünür. Əgər məsələyə qarşılıqlı prinsip əsasında baxsaq, o zaman Naxçıvan Azərbaycanla, Ermənistan isə öz növbəsində Yerasx və Culfa vasitəsilə İranla əlaqə yarada bilər. Əgər azərbaycanlılar Ermənistan vasitəsilə qurudan Azərbaycana çata bilirlərsə, bu, Ermənistan



vətəndaşlarına da şamil edilməlidir, onlar Naxçıvandan İrana gedə bilərlər".

İranlı diplomatın manipulyativ sözləri bununla da bitməyib. O, əlavə edib ki, əgər bütün ölkələr bu nəqliyyat imkanlarından yararlana bilsələr, bu, hamının marağında olar, ona görə də heç kim etiraz etməz: "Bizə aydın olmayan yol operatorunun hərəkətlərinə aiddir. Bu məsələ ilə bağlı təfərrüatlar hələ də bəlli deyil. Söhbət həm də investisiya cəlb edəcək birgə müəssisənin yaradılması ətrafında müzakirələrdən gedir. Hər şey aydın olandan sonra biz qiymət verə bilərik. Hələlik bu suallar cavabsız qalır". Son olaraq diplomat qeyd edib ki, risk bu layihənin bir hissəsi həyata keçirildikdə, digəri həyata keçirilməyəndə yaranacaq. Yəni yolların bir hissəsi istifadə olunacaq, digər hissəsi istifadə edilməyəcək.

Məsələ burasındadır ki, Sobhani "Dünyanın kəsişməsi" layihəsinə, guya, dəstək bəyan etsə də, onun çıxışında ikibaşlı, çaşqınlıq yaradan mesajlar açıq-aşkar sezilir. Sabiq səfirin fikirləri həm tarixi, həm hüquqi, həm də geosiyasi reallıqları saxtalaşdırmaqdan başqa bir şey deyil. Çünki Naxçıvanla Azərbaycanın əsas torpaq hissəsi arasındakı yolun bərpası Azərbaycan xalqının və beynəlxalq hüququn tələbidir. Ermənistanın İranla əlaqə qurması isə tamamilə başqa müstəvidə müzakirə ediləcək məsələdir və bunu Naxçıvan məsələsi ilə eyniləşdirilmək sadəcə hiyləgərlikdir.

Digər bir məqam sabiq səfirin "bu yollar hamının marağındadır, heç kim etiraz etməz" deyərək görüntü yaratmağa çalışmasıdır. Məlum olduğu kimi, Zəngəzur dəhlizi (TRIPP) təkcə regional deyil, həm də qlobal layihədir. Əgər belə olmasaydı dünyanın "supergücləri" buna dəstək verməzdi. Bu dəhlizin açılmasında qonşu ölkələrlə yanaşı, Çin, ABŞ, Rusiya və Qərb dövlətləri də maraqlıdır. Amma bundan daha vacibi, yəni bölgədə "hamının marağına xidmət edən" məsələ Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasıdır. Bu da Ermənistanın boynuna götürdüyü öhdəliklərini icra etməsindən asılıdır. Lakin bu barədə sabiq səfir bir kəlmə belə deməyib. Onun "risk" barədə danışması da açıq mesajdır. Sobhaniyə görə, əgər Ermənistan gələcəkdə üzərinə düşəni etməsə belə, günah Ermənistanda olmayacaq. Halbuki bu günə qədər Cənubi Qafqazda yaranan bütün risklər məhz rəsmi İrəvanın yanlış siyasəti ucbatından olub.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Tural İSMAYILOV,**
**politoloq**

İranın Ermənistandakı keçmiş səfiri Mehdi Sobhani vida çıxışında yenə diplomatik etiketi aşaraq, mənasız və əsassız bəyanatla çıxış edib. Onun Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında yolun açılmasını Ermənistanın İrana çıxışı ilə eyniləşdirməsi nə beynəlxalq hüquqa, nə də regionun real siyasi gündəminə uyğun gəlir. Bu, sadəcə, süni qorxu yaratmaq və prosesi yanlış prizmalarda təqdim etmək cəhdidir.

Əslində, Zəngəzur dəhlizi İran əleyhinə deyil, əksinə, Tehranın da tranzit imkanlarını artıracaq bir layihədir. Amma səfir bu həqiqəti görməzdən gələrək, Ermənistanda "antisülh missiyası" yürüdür və reallığı təhrif etməklə məşğuldur.

Sobhani bu cür açıqlamalarla Ermənistanı sanki İranın təsir dairəsində saxlamağa çalışır. İrəvanda sülh mühitini gücləndirmək əvəzinə, səfir gərginliyi körükləyən mövqe sərgiləyir. Sobhani vida çıxışında diplomata yaraşmayan tərzdə danışaraq, Ermənistan cəmiyyətinə yanlış mesajlar ötürməyə çalışıb. Onun bu davranışı, guya, İranın regiondakı proseslərə obyektiv yox, birtərəfli və qərəzli yanaşdığını göstərməyə xidmət edir. Sabiq səfirin dedikləri faktlara deyil, siyasi manipulyasiyalara əsaslanır və Ermənistan ictimai rəyini çaşdırmaq məqsədi güdür. Azərbaycanın Naxçıvanla əlaqəsinin bərpasını İran üçün "təhlükə" kimi təqdim etmək, sadəcə, populist ritorikadır. Belə bəyanatlar həm də Ermənistan rəhbərliyini reallıqdan uzaqlaşdırır və sülh danışıqlarını zəhərləyir.

Əgər Sobhani regiona sülh gətirəcək layihəni bu cür təhrif edirsə, deməli, o, diplomatiya ilə yox, təxribatla məşğuldur. Onun bu yanaşması, əslində, rəsmi Tehranı çıxılmaz vəziyyətə salır. Çünki nə regional dövlətlər, nə də beynəlxalq oyunçular bu arqumentləri qəbul etmir. Sobhani sanki Ermənistanın inkişafını yox, təcridini arzulayır. Halbuki kommunikasiya xətləri açıldıqca bölgədə həm iqtisadi, həm də siyasi sabitlik güclənəcək. Onun mənasız açıqlamaları isə bu prosesə kölgə salmaq cəhdindən başqa bir şey deyil.

# İranda hicab məsələsi gündəmdən çıxmır

## *President Pezeşkian isə cəmiyyətə fərdi azadlıq mesajları verir*

**İran İslam Respublikasında qadınların hicab taxmaları həm dini ənənələrin, həm də dövlət qanunvericiliyinin tələbi kimi formalaşıb. Lakin bu qaydanın məcburi xarakter daşıması bəzən ictimai müzakirələrə səbəb olur. Xüsusilə böyük şəhərlərdə gənc nəsil arasında fərqli geyim tərzinə meylin artması bu məsələdə müxtəlif baxışların olduğunu göstərir. Bəzi qadınlar hicabı dini dəyərlərə hörmət əlaməti sayaraq könüllü qəbul etsə də, digərləri bunu şəxsi seçim azadlığının məhdudlaşdırılması kimi dəyərləndirir. Bu fərqli münasibətlər cəmiyyətdə sosial və mədəni dinamikanı gücləndirir. Rəsmi dairələr isə hicabla bağlı qaydaların qorunmasının vacibliyini önə çəkir. Beləliklə, hicab məsələsi İranda həm fərdi azadlıq, həm də dini və hüquqi qaydaların tarazlığını əks etdirən mühüm müzakirə mövzusuna çevrilib.**

Bu günlərdə İran Prezidenti Məsud Pezeşkian da məsələyə münasibətini açıqlayıb. O, "NBC News" telekanalına müsahibəsində qadınların məcburi hicab taxmalarına qarşı olduğunu bildirib. Pezeşkian cümə günü "NBC axşam xəbərləri" proqramının aparıcısı Tom Llamasa müsahibəsində üç il əvvəl İranın əxlaq polisi tərəfindən saxlanıldıqdan sonra ölümü



geniş etirazlara səbəb olmuş Məhsa Amini ilə bağlı sualı cavablandırarkən deyib: "İnsanların seçim hüququ var. Biz daxili problemlərimizi düzgün idarə etmədik və onların həllini həyata keçirmədik".

O, həmçinin dünyanın qalan hissəsinin həmin etirazlar zamanı vəziyyəti nəzarətdən çıxacaq şəkildə qarışdırdığını söyləyib: "Əlbəttə, hər bir insan həyatı dəyərlidir. Ancaq Livanda, Qəzzada və Fələstinin bütün ərazisində, Yəməndə və Suriyada hər gün yüzlərlə insan ölür və heç kim gözünü qırpmır. Niyə? Onlar insan varlığından aşağıdırlar?"

Qeyd edilib ki, müsahibə dövlət tərcüməçisinin iştirakı ilə aparılıb. Tərcüməçi müsahibəni real vaxt rejimində tərcümə edib. "NBC News"un tərcüməni müstəqil şəkildə analiz etdiyi vurğulanır.

İran Prezidentinin qadınların məcburi hicab geyinməsinə dair ABŞ-ın dünyaca məşhur telekanalına verdiyi açıqlama ölkənin ictimai-siyasi həyatında diqqətçəkən



hadisə kimi qiymətləndirilir. Onun "insanların seçim hüququ var" fikri həm İranda, həm də beynəlxalq müstəvidə müəyyən rezonans doğurub. Bu mövqe ilk növbədə, İran cəmiyyətində uzun illərdir müzakirə olunan hicab məsələsini yalnız dini çərçivədə deyil, insan hüquqları kontekstində də gündəmə gətirir.

Xatırladaq ki, 2022-ci ilin sentyabrında 23 yaşlı Məhsa Amininin əxlaq polisi tərəfindən Tehranda saxlanıldıqdan sonra ölümü qadınların geyim azadlığı ilə bağlı bütün İran ərazisində geniş etirazların başlanmasına səbəb olmuşdu. Həmin vaxtdan bəri hicab məsələsi İran daxilində mühafizəkar və islahatçı siyasi qüvvələr arasında fikir ayrılıqlarını daha da kəskinləşdirib. Məlumdur ki, M.Pezeşkian islahatçı qanadı təmsil edir və onun son çıxışı bu mübahisələrdə yeni mərhələnin siqnalı kimi dəyərləndirilə bilər. O, məsələyə radikal yanaşmadan uzaq, lakin vətəndaşların fərdi seçim hüququnu nəzərə alan yumşaq mövqe sərgiləyib. Bu yanaşma İran daxilində bütövlükdə, islahatçı qüvvələrin mövqeyini ifadəsi sayıla bilər. Bununla belə, ölkədə güclü təsirə malik mühafizəkar dairələr qadınların hicab taxmasının dini dəyərlərin qorunması və ictimai qayda baxımından vacib olduğunu müdafiə edirlər. İctimai müzakirələrdə iki mövqenin toqquşması, əslində, İran cəmiyyətinin modernləşmə meyilləri ilə dərin dini ənənələri arasında tarazlıq axtarışının göstəricisidir.

M.Pezeşkianın "daxili problemlərimizi düzgün idarə etmədik" sözləri həm də son illər ölkənin siyasi rəhbərliyinin etirazlar və sosial gərginliklərə münasibətdə buraxdığı boşluqların etirafı kimi görünür. Bu, ictimai narazılığın səbəblərinin təkcə xarici müdaxilələrlə deyil, daxili idarəetmədəki problemlərlə bağlı olduğunu göstərir. Digər tərəfdən, Pezeşkianın Livan, Qəzza, Yəmən və Suriyada yaşanan faciələrə toxunması Qərb dünyasının insan hüquqlarına münasibətdə selektiv davranışını tənqid kimi səslənir. Bu açıqlama onun həm beynəlxalq ədalətsizliklərə diqqət çəkdiyini, həm də İranın daxili məsələlərinə daha humanist yanaşma sərgiləmək istədiyini ortaya qoyur.

Əlbəttə, İran Prezidentinin mövqeyini radikal dəyişiklik kimi qiymətləndirmək doğru olmaz. O, mövcud qaydaların tamamilə ləğvini deyil, vətəndaşların fərdi seçim hüququna hörmətin artırılmasını önə çəkir. Bu isə ölkədə uzun illərdir davam edən ənənəvi dini qaydalarla müasir ictimai tələblər arasında kompromis axtarışını göstərir. Hicab məsələsinin insan hüquqları baxımından gündəmə gətirilməsi, hər halda, İranda sosial mühitin yumşaldılmasına, fərqli düşüncələr arasında dialoqun güclənməsinə xidmət edə bilər.

*

Onu da bildirək ki, M.Pezeşkian prezident kimi and içərək vəzifəsinin icrasına başladığı 2024-cü il iyulun 30-dan etibarən hicab məsələsi, ümumiyyətlə İranda insan hüquqlarına dair pozitiv fikirlər səsləndirib. Məsələn, o, ötən il bildirmişdi ki, əxlaq polisi qadınları məcburi hicab taxmaları üçün bir daha təqib etməyəcək. Ancaq maraqlıdır ki, əxlaq polisinin hicabsız qadınları küçələrdə sıxışdırmasını qadağan etmək İran Prezidentnin səlahiyyətindən kənardadır. Bu baxımdan qadınların İranın şəhər və kəndlərinin küçələrində başlarını örtmədən sərbəst və problemsiz gəzə biləcəkləri inandırıcı görünmür. Təsadüfi deyil ki, prezidentin bəyanatlarından dərhal sonra Ali Məhkəmənin sədri Məhəmməd Cəfər Müntəziri Pezeşkianın əxlaq polisi ilə bağlı fikirlərini tənqid etmişdi. Müntəziri prezidentin mətbuat konfransında İslam dəyərlərinə və hicab qanunlarına uyğun olmayan geyimdə bir qadının göründüyünü və Pezeşkianın ona deyil, əxlaq polisinə xəbərdarlıq etdiyini söyləmişdi. Ancaq burada bir məqamı da qeyd etmək lazımdır. Son illərdə İranda bir çox məsələlərdə vəziyyət xeyli yüngülləşib. Küçələrdə çoxlarının hicab taxmaq qaydalarına əməl etmədiklərini görmək olar və buna görə heç kim həbs olunmur. Əxlaq polisi bəzən hicabsız müəyyən qızları seçib incidir, lakin onlar müqavimət göstərirlər. Yəni, bu kimi hallar artıq İran cəmiyyətinin reallığıdır.

Ümumilikdə, Pezeşkianın açıqlaması onun islahat yönümlü xəttinə işarədir. Bu, ölkənin daxili sabitliyinə, həmçinin beynəlxalq imicinə müsbət təsir göstərə biləcək addım kimi dəyərləndirilir. İranın gələcək siyasi kursunda mühafizəkarlarla islahatçılar arasında kompromisin nə dərəcədə mümkün olacağı isə hələ açıq qalır. Hər halda, yeni prezidentin insan hüquqları mövzusuna diqqət yetirməsi, məcburi hicab siyasətinin yumşaldılması barədə mesajlar verməsi İranda tədrici sosial dəyişikliklər üçün müəyyən ümidlər doğurur.

***Səxavət HƏMİD***
***XQ***

# Prezidentin BMT manifesti – dünyaya Azərbaycan mesajı

(əvvəli 1-ci səhifədə)



İqtibasdakı fikrə gəlincə, əslində, Prezident İlham Əliyev 1991-ci ildən müstəqilliyinə qovuşsa da, işğallar, məhrumiyyətlər və çətinliklərlə üzləşmiş, lakin ruhdan düşməyərək öz amalları uğrunda əzmlə irəliləmiş ölkənin rəhbəri kimi dünyaya çağırış səsləndirdi. Yəni Azərbaycan ona görə vacib məmləkətdir ki, onun bəşəri sülh prioriteti var. Elə bir sülh ki, özündə həm ədaləti, həm də əməli addımların timsalında əməkdaşlığı və dərin işbirliyini cəmləşdirir. Amma şərtimiz var. "Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır".

Mesaj aydındır: Heç kəs, heç bir dövlət Azərbaycanla diktə dilində danışa bilməz. Həm də ona görə danışa bilməz ki, ölkəmiz dünyanın mühüm nöqtələrindən sayılan Cənubi Qafqazda sülhü təmin edib. Deməli, ölkəmiz beynəlxalq aləm üçün məhz bu səbəbdən vacibdir. Çünki Azərbaycanın təmin etdiyi düzən özündə sülhü bəşəri faydaya çevirmək potensialını daşıyır. Amma keçmiş unudulmamalıdır. Elə 80-ci sessiyaya toplaşmış dövlətlərin təmsilçiləri də Prezident İlham Əliyevin bu fikrini yaddan çıxarmamalıdırlar: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam".

Bəli, Prezident İlham Əliyev mötəbər kürsüdən həqiqətləri danışdı və otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizinin Ermənistanın işğalı altında qaldığını, bu ölkənin həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi cinayətlər nəticəsində bir milyon azərbaycanlının öz yurd-yuvasından didərgin salındığını, vətəndaşlarımızın fundamental insan hüquqlarının kobud şəkildə pozulduğunu bildirdi. Ən başlıcası isə dövlətimizin başçısı bütün bunlara dünya birliyinin etinasız yanaşdığını diqqətə çatdırdı.

Prezident Əliyevin Ermənistanın BMT-nin işğalın dayandırılmasına dair 4 qətnaməsini heçə saydığını vurğulaması fonunda gözlərimiz önündə təcavüzə haqq qazandırmaq, onu leqallaşdırmaq cəhdləri də canlandı. Daha doğrusu, ölkəmizin lideri keçmişi canlandırdı: "1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu isə öz missiyasını yerinə yetirə bilmədi. Onun həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar".

Üzləşdiyi bütün riyakarlıqlara və ədalətsizliklərə baxmayaraq, Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. 2020-ci ilin Vətən müharibəsi təkcə bu yoldakı mühüm mərhələ olmadı, həmçinin, xalqımızın həmin riyakarlıqlara və ədalətsizliklərə üsyanına çevrildi. Nəzərə alaq ki, 44 günlük müharibə başlayanda ölkəmizi, az qala, işğalçı və qəsbkar kimi təqdim etmək meyillərini görmüşdük. Bu sayaq təmayüllərə qarşı informasiya savaşı aparmışdıq. Nəhayət, indi Azərbaycan lideri BMT-dən haqq davamızı dünyaya ədalət prizmasından təqdim edir. Bu təqdimat yalnız sözlərdə ifadəsini tapan tezis deyil, böyük diktədir. Baxın, beş il əvvəl milli əzmimizi təzavüzkarlıq pəncərəsindən dəyərləndirməyə çalışanlar hazırda Prezident İlham Əliyevin səsləndirdiyi və ehkamlaşmış mahiyyət daşıyan bu fikirlərini dinləməyə, sadəcə, məhkumdurlar: "Otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu. Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi. Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı. Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi".

Məlum olduğu kimi, Azərbaycan 44 günlük müharibədən, eləcə də lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistana sülh əlini uzatmışdı. Prezident İlham Əliyev həm 2020-ci il noyabrın 10-da, həm də 2023-cü il sentyabrın 20-də xalqa müraciətində Cənubi Qafqazın tarixində yeni mərhələnin başlandığını elan etmişdi. Dövlətimizin başçısı dilə gətirdiyi fikirlərlə sülhün qarşılıqlı fayda kazusunu müəyyənləşdirmişdi. Xaricdəki havadarlarına arxalanan Ermənistan isə xeyli müddət Azərbaycanın barış gündəminə müqavimət göstərmişdi.

Nəhayət bu il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə iki Cənubi Qafqaz ölkəsinin xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladılar. Həmin gün Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar ki, həmin sənədə Birləşmiş Ştatların dövlət başçısı şahid qismində imza atdı. Sülhün haqqında söz açdığımız qarşılıqlı fayda kazusuna gəlincə, Prezident İlham Əliyev BMT tribunasından regional bağlantıların davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil etdiyini vurğuladı: "Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP)".

Əlbəttə, Vaşinqton sammiti Cənubi Qafqaz tarixində sülhə yol açan mühüm platformadır. Mövcud xüsusda region ölkələrinin Prezident Trampa təşəkkür payı var ki, onu dövlətimizin başçısı Azərbaycanın adından həm BMT tribunasından, həm də ali qurumun Baş Assambleyasının 80-ci sessiyası çərçivəsindəki rəsmi qəbulda bir daha bildirdi. Dövlətimizin başçısı çıxışında, həmçinin, Bakı–Vaşinqton münasibətlərində yeni mərhələnin başlandığını da bəyan etdi, Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunu da yüksək qiymətləndirdi.

Ancaq əməkdaşlığın daha səmimi şəkildə qurulması vacibdir. Bunun üçün keçmişin mənfi stereotiplərindən birdəfəlik uzaqlaşmaq lazımdır. Keçmiş isə həm də ölkəmizə qarşı böyük ədalətsizlik təmayülünü daşıyır. Söhbət Bakı–Vaşinqton əməkdaşlığından gedirsə, indiki halda diqqətlər Azadlığa Dəstək Aktına 907-ci düzəlişə yönəlir. Prezident İlham Əliyev çıxışında Birləşmiş Ştatların dövlət başçısı D.Trampın 1992-ci ildə qəbul olunmuş həmin düzəlişin icrasını dayandırmasına dair qərarını tarixi addım kimi qiymətləndirməklə kifayətlənmədi, eyni zamanda, gələcək əməkdaşlıq üçün etimad prioritetini açıqladı. Dövlətimizin başçısı dolayısı ilə mesaj verdi ki, ABŞ-ın Azərbaycana qarşı təzyiq məntiqini daşıyan heç bir rıçaqı olmamalıdır: "ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi".

Prezident İlham Əliyevin BMT-dəki çıxışında ifadəsini tapan daha bir məqama diqqət yetirək. Ölkəmiz lideri bildirdi ki, Azərbaycan işğalı aradan qaldırmaq mətanəti ilə bərabər, təzavüzdən qurtardığı torpaqlarına sahiblənmək əzmi ilə də dünyaya nümunədir. Nəzərə alaq ki, cənab Əliyev "Böyük Qayıdış" Proqramı çərçivəsində 50 mindən çox insanın azad edilmiş torpaqlarda yaşayıb işlədiyini və təhsil aldığını təsadüfən vurğulamır. Postmünaqişə dövründə Ermənistanın mina terrorunun yaratdığı təhlükələri, bu təhlükələrin köçkünlərin təhlükəsiz qayıdışına və bərpa layihələrinin həyata keçirilməsinə əngəl törətdiyini, 1990-cı illərin əvvəllərindən bəri Ermənistanın təcavüzü və işğalı zamanı itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli tale yaşadığını da həmçinin. Bunlar ciddi problemlərdir. Yəni dövlətimizin başçısı deyir ki, bütün çətinliklərə rəğmən, Azərbaycanın qlobal çağırışlara cavab tədbirləri inklüziv, ədalətli və ümumbəşəri mahiyyət daşıyır.

Prezident İlham Əliyevin çıxışında bildirdiyi kimi, ölkəmiz bir çox təşəbbüslərlə dayanıqlı həll variantlarının təşviqinə aydın sadiqliyini göstərib. Dövlətimizin başçısının bu baxımdan üzərində dayandığı ilk məqam Bakının ötən il iqlim fəaliyyəti, yaşıl keçid və maliyyəyə ədalətli çıxış məsələlərində mühüm nəticələr əldə olunmuş COP29-a ev sahibliyini uğurla reallaşdırmasıdır. "COP29-un ev sahibi kimi bütün tərəflərin, xüsusən də inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməklə, iddialı və balanslı nəticələrə yönəlmiş danışıqlara rəhbərlik etdik", - deyən ölkəmizin lideri COP29-da qəbul edilmiş və Bakı Maliyyə Hədəfi kimi tanınan Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) qlobal iqlim maliyyəsində tarixi mərhələ olduğunu vurğulayıb. Əlbəttə, Prezident Əliyevin mövcud xüsusda konkret mesajı da var: "Yaşıl keçidə ciddi şəkildə sadiq qalmaqla yanaşı, qarşımıza real olmayan hədəflər qoymamalıyıq. Dünya bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşaya bilməz".

Azərbaycan enerji təhlükəsizliyini özündə ehtiva edən sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli məqsədlərin qlobal səviyyədə irəlilədilməsində fəal rol oynamaqdadır. Ayrıca onu da deyək ki, ölkəmiz bir çox ölkələrin enerji təhlükəsizliyinin təminatında özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Azərbaycan, habelə, şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji missiya daşıyır. "Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir. Bundan əlavə, son vaxtlar Azərbaycan və Suriya enerji təchizatı, infrastrukturun inkişafı və münaqişədən sonra yenidənqurma işlərinə diqqət yetirərək ikitərəfli tərəfdaşlığı gücləndirib. Bu ilin avqust ayından Azərbaycan Türkiyə ərazisindən Suriyaya təbii qaz tədarük etməyə başlayıb və bununla da ölkənin elektrik enerjisi çatışmazlığını əhəmiyyətli dərəcədə azaldıb", - deyən Prezident İlham Əliyev 2030-cu ilədək ölkəmizin enerji istehsalının təxminən 40 faizinin bərpaolunan mənbələr hesabına təmin ediləcəyinin anonsunu verir.

Beləliklə, Şərq–Qərb və Şima–Cənub dəhlizləri kimi mühüm bağlantı layihələrinin ərazisindən keçdiyi Azərbaycan yükdaşımalarda təqribən 90 faiz artıma malik Orta Dəhliz boyu tranzit müddətlərinin əhəmiyyətli dərəcədə azalmasına səylər göstərir, beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevrilir, özündə rəqəmsal bağlantılar sahəsində əməkdaşlıq üçün böyük potensial daşıyır, "Rəqəmsal İpək Yolu" kimi əhəmiyyətli layihə vasitəsilə rəqəmsal transformasiya təşəbbüsünü irəlilədir, iqtisadiyyatını şaxələndirir, qeyri-neft sektorunun inkişafına, islahatlar və şəffaflıq vasitəsilə investisiya mühitinin yaxşılaşdırılmasına diqqət yetirməklə, mühüm iqtisadi artıma nail olur. Görülülən tədbirlər həm də ölkəmizdə yoxsulluğun və işsizliyin tarixi minimum həddə – 5 faizə enməsinə gəririb çıxarır.

Prezident İlham Əliyev BMT tribunasından bütün bunları, o cümlədən xarici borcumuzun azalmasını, valyuta ehtiyatlarımızın xarici borcumuzdan təxminən 16 dəfə artıqlığını müstəsna nailiyyət kimi qiymətləndirməklə yanaşı, Azərbaycanın qlobal səviyyədə humanitar yardım səyləri ilə qürur duyduğunu, təbii fəlakətlərdən, münaqişələrdən və səhiyyə sahəsində böhranlardan zərər çəkən ölkələrə yardım göstərdiyini, COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində təşəbbüskarlığını qabardır.

Sonda əvvəldə diqqətə çatdırdığımız məqama qayıdaq. Bəli, Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışına nəzərən gəldiyimiz qənaət odur ki, dövlətimizin başçısı Azərbaycanı, belə demək mümkünsə, dünya üçün vaciblik pəncərəsindən təqdim edir və fikrini dolğun şəkildə əsaslandırır. Nəhayət "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu", - deyən ölkəmizin lideri Vətənimizin yeni bir dövrə qədəm qoyduğunu bəyan edir. Nailiyyətlərlə dolu dövrə. Prezident İlham Əliyevin mötəbər kürsüdən verdiyi ən böyük mesaj isə budur: Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız ölkəmizin özünün qələbəsi və uğuru deyil, eyni zamanda beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur. Azərbaycan öz təcrübəsini paylaşmağa hazırdır. Ona görə hazırdır ki, ədalətsizliklər, ikili yanaşmalar və riyakarlıqlar aradan qalxsın, ölkələr və xalqlar arasında səmimi münasibətlər qərarlaşsın. O səbəbdən hazırdır ki, dünyada inkişaf, tərəqqi və sülh olsun.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan diplomatiyasının Vaşinqton akkordları



**Çoxdan təsdiqini tapmış belə bir postulat var: hadisədən uzaqlaşdıqca onun möhtəşəmliyi faydalılıq əmsalı, tarixi əhəmiyyəti daha qabarıq şəkildə özünü göstərməyə başlayır. Həmin hadisənin dərin elmi-tədqiqatı gələcəkdə araşdırmaçıların işidir. Bu yazıda məqsədimiz oxucunun diqqətini tarixi hadisənin baş verməsində şəxsiyyətin oynadığı rola yönəltməkdir.**

***

Bəli, Vaşinqtonda baş verən hadisə Azərbaycan və ABŞ diplomatiyasının möhtəşəm qələbəsi kimi səciyyələndirilməyə layiqdir. Bakı üçün bu qələbə irəli sürdüyü sülh gündəliyinin son və məntiqi nöqtəsi, Vaşinqtondan ötrü Cənubi Qafqazda nüfuzunun və təsirinin birə on artması deməkdir. Vaxtilə münaqişəyə ədalətli yanaşma üçün gözümüzü Klintona dikəndə yanıldıq, Buşa ümidlənəndə peşman olduq, sonra isə Obamaya, nə də Baydenə bel bağlamağın faydasızlığını gördük. Amma indi Donald Trampın qırımı çox aydın və yaxşıdır. Çünki kartlar açılıb, oyun açıq müstəvidə gedir. Adam çox rahat oynayır…

ABŞ Prezidenti sübut etdi ki, o, münaqişələri dayandıran və Amerikanın bütün dünyada təsirini bərpa edən sülhməramlıdır. Bu təsir Baydenin prezidentliyi dövründə ciddi şəkildə zəiflədi və itirildi. Təkcə Əfqanıstandan biabırçılıqla geri çəkilməyi xatırlamağımız yetər. Donald Tramp nümayiş etdirir ki, ABŞ yeni regionda – Cənubi Qafqaza diqqət ayırmaqla yenidən böyükləşir. Beləliklə, adı TRIPP abreviaturası kimi qısaldılmış bu sazişin qalibləri ilk növbədə ABŞ və Azərbaycan, eləcə də ətraf aləmdən təcridinə son qoyulduğu üçün Ermənistandır. Ermənistan təkcə Azərbaycanla sülh yaratmır, həm də Türkiyə ilə münasibətləri normallaşdırır, həm də bundan faydalanır. Çünki indi onun materik Azərbaycanla birbaşa nəqliyyat dəhlizi olacaq. Bundan başqa, Türkiyənin regionda və Orta Asiyada təsiri hədsiz dərəcədə artır. Burada uduzan tərəf şübhəsiz ki, Cənubi Qafqazda təsiri xeyli azalmış Rusiyadır.

***

Avqustun 8-də Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp arasında Birgə Bəyannamənin imzalanması ilə nəticələnən görüş dövlətlər arasında sülhün təmin edilməsi və möhkəmləndirilməsinin vacibliyinin vurğulandığı tarixi hadisədir.

Görüşün məntiqi və onun formatı prosesin əhəmiyyətini təsdiqləyir. ABŞ, konkret olaraq Tramp Administrasiyası Rusiyanın Cənubi Qafqazda təsirini zəiflədən çox uğurlu diplomatik kampaniya apardı. Deyə bilərik ki, bu bölgədə "Kreml erası" başa çatıb. Siyasi baxımdan Kreml hər vəchlə bunu əksini canlandırmağa çalışsa da, reallıqda heç vaxt mövcud olmayan bir anlayışdır. Birmənalı şəkildə deyə bilərik ki, Moskvanın imperiya fəlsəfəsi qonşuları arasında etibarını tamamilə itirməsinə səbəb oldu. Uzun illər Bakı ilə İrəvan arasında yaranmış gərginlikdən Kreml sui-istifadə etdi, amma Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra vəziyyət kökündən dəyişdi. Rusiya, "sanki" bu dəyişiklikləri hiss etmədi, təşəbbüsü itirdi və adi təsir üsullarından istifadə etməyə davam etdi. Fəqət məlum oldu ki, o üsullar artıq işləmir. İndi Cənubi Qafqazın sabitlik, inteqrasiya və tərəqqi regionu olmaq şansı var. Bu, Azərbaycanın, Ermənistanın və Gürcüstanın xeyrinə olacaq.

***

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı ilə bəşəriyyətin inkişafına yön verdi, dünya dövlətlərinə bir növ gələcək fəaliyyətlə bağlı dəqiq, aydın yol xəritəsi təqdim etdi. Dövlətimizin başçısı öz "dəmir" məntiqi ilə sübut etdi ki, planetimizin sabahı dünya dövlətlərinin bir-biriləri ilə sülh şəraitində yaşamasından, səmimi əməkdaşlığından asılıdır. Bu, zərgər dəqiqliyi, diplomat fəhmi ilə düşünülmüş hərtərəfli bir çıxış idi.

"Avqustda ABŞ-a səfərim zamanı əldə olunmuş razılaşmalar tarixi əhəmiyyət kəsb edir. Mən ABŞ Prezidenti Donald Trampa Azərbaycan–Amerika münasibətlərində yeni səhifə açdığına, münasibətləri strateji tərəfdaşlığa yüksəltmək qərarına və Azərbaycan və Ermənistan arasında sülh prosesinə verdiyi dəstəyə görə təşəkkür edirəm"– deyən Prezident İlham Əliyev Azərbaycanın son illərdə qazandığı uğurları, regionda artan nüfuzunu və Cənubi Qafqazda müstəqil, vahid inkişaf xəttini bütün dünyaya bəyan etdi. Ən əsası isə dövlət başçımızın çıxışı sülh, praqmatizm, inkişaf və tərəqqi mesajı ilə yadda qaldı. Avqustda Vaşinqtonda, sentyabrda Nyu-Yorkda verilən mesajları ilə İlham Əliyev Azərbaycan diplomatiyasının irəliyə doğru iki təkanlı sıçrayışını nümayiş etdirmiş oldu.

Beləliklə, Azərbaycanın beynəlxalq arenada mövqeyini daha da möhkəmləndirdi, nüfuzunu artırdı, ciddi tərəfdaşlardan – Türkiyə, Pakistan, İslam dünyasından, indi isə ABŞ Prezidenti Donald Trampdan təminat aldı. Yeri gəlmişkən, Ağ Ev sahibi iki dəfə özünün "Truth Social" səhifəsində Prezident İlham Əliyevin bəyanatını təkrar dərc etdi. Donald Trampın həm Vaşinqtonda, həm də Nyu-Yorkda ölkəmiz və İlham Əliyev haqqında söylədiyi isti fikirlər bu məntiqə tam uyğun gəlir. Bütün bu amillər onu göstərir ki, ABŞ Azərbaycanı regionun aparıcı dövləti və çoxtərəfli əməkdaşlıq qura biləcəyi etibarlı tərəfdaş kimi qəbul edir.

Cənubi Qafqazın tarixində yeni bir səhifə açılıb. Amma region buradakı üç dövlətə məxsusdur. Bizi təkcə coğrafiya deyil, həm də maraqlar birləşdirir. Bu həqiqəti dərk etmək, səylərimizi sinxronlaşdırmaq istəyi və qlobal oyunçuların, ilk növbədə ABŞ-ın gözündə regionun artan əhəmiyyəti Vaşinqtonda şahidi olduğumuz hadisələrin əsas elementləridir. Azərbaycanın qarşısında yeni imkanlar açılır. İndi əsas vəzifə onları itirməmək, əksinə, bacarıqla həyata keçirməkdir.

Şübhə yoxdur ki, sülh müqaviləsi ilk növbədə İrəvan üçün zəruri və faydalıdır, çünki o, Ermənistan iqtisadiyyatının inkişafında və regional əlaqələrin genişlənməsində prinsipial yeni mərhələ açır. Azərbaycan və Gürcüstan öz növbəsində, məsələn, respublikaların sərhədlərində yerləşən faydalı qazıntı yataqlarının birgə işlənməsindən çoxlu dividendlər alırlar ki, onların heç biri təkbaşına bunun öhdəsindən gələ bilməz. Burada Ermənistan və Azərbaycan arasında imzalanacaq yekun sülh sazişi hər iki ölkənin parlamentləri tərəfindən ratifikasiya edildikdən sonra ABŞ investisiyaları da rol oynaya bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Xalqımız Zəfər şəhidlərini ehtiramla yad etdi

**Paytaxtın və bölgələrin əksər kollektivləri Anım Günündə Vətən müharibəsi qurbanlarını dərin ehtiramla yad etdilər. Şəhid məzarları və xatirə abidələri ziyarət edildi, qazanılmış Zəfərin xalqımızın tarixi taleyində misilsiz rolu qeyd olundu.**

## Gömrük Komitəsi



**“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin birgə təşkilatçılığı ilə “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda şəhid və qazi ailələrinin üzvləri, eləcə də yerli sakinlər üçün Anım Gününə həsr olunmuş ödənişsiz tibbi-sosial aksiya təşkil edilib.**

Mərkəzi Gömrük Hospitalının müxtəlif ixtisaslı həkimləri tərəfindən 200 nəfərə kardioloji, uroloji, endokrinoloji, radioloji, nevroloji, oftalmoloji, ginekoloji, terapevtik, pediatrik və cərrahi xidmətlər daxil olmaqla 500-dən çox tibbi müayinələr göstərilib.

## Medianın İnkişafı Agentliyi



**Medianın İnkişafı Agentliyində Anım Günü ilə əlaqədar mərasim keçirilib. Tədbirdə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Sonra Agentliyin kollektivi Zəfər parkına gəlib, Zəfər abidəsinin önünə gül dəstələri düzüb.

## Pedaqoji Universitet



**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən “Meh” ədəbi dərnəyi tərəfindən Anım Gününə həsr olunmuş “Zəfərə gedən yol” adlı mərasim keçirilib.**

Toplantıda 44 günlük şərəfli yolun, misilsiz igidliyin və milli birliyin ölkəmizə bəxş etdiyi Zəfər ruhu birliyin üzvlərinin hazırladıqları ədəbi-bədii kompozisiyalarla bir daha canlandırılıb, tələbələrin təqdimatında səsləndirilən şeirlər və nəğmələrlə qəhrəman oğullarımızın xatirəsinə ehtiram ifadə olunub.

*



## Naxçıvan

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri şəhidlərin əziz xatirəsini yad ediblər.**

Səlahiyyətli nümayəndə, dövlət və hökumət nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, üzərinə tər qərənfillər düzüblər. Fuad Nəcəfli şəhidlərin ailə üzvləri ilə görüşərək ehtiramını ifadə edib.

“Qurani-Kərim”dən ayələr oxunub, şəhidlərin ruhuna dualar edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur rayonunun Dizə kəndində və Culfa şəhərində Vətən müharibəsi şəhidləri mayor Vüsal Vəliyevin və leytenant Yaqub Nəcəfovun, eləcə də Naxçıvan şəhərində antiterror əməliyyatları zamanı şəhid olmuş kapitan Elcan Babəbəylinin ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

## Gəncə

**Anım Günü münasibətilə respublikanın bütün şəhər və rayonlarında olduğu kimi Gəncə, Göygöl,**



**Goranboy və Naftalanda da ümumşəhər mərasimləri təşkil olunub.**

Gəncədə şəhər rəhbərliyi başda olmaqla idarə, müəssisə və təşkilat rəhbərləri və nümayəndələri, eləcə də şəhər əhalisi Gəncə Şəhidlər xiyabanını ziyarət edərək, şəhidlərin əziz xatirəsini anıblar.

Gəncəbasarın Göygöl rayonunda təşkil olunan anım tədbirində Şəhidlər xiyabanında torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Şəhər sakinləri xiyabana axın edərək, şəhidlərin məzarlarını ziyarət ediblər. Goranboy rayonunda da Şəhidlər xiyabanı ziyarət olunub, şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad edilib. Naftalanda keçirilən tədbirdə əvvəlcə Şəhidlər xiyabanı ziyarət olunub. Daha sonra ağacəkmə aksiyası keçirilib.

## Mingəçevir



**Anım Günü münasibətilə Mingəçevir şəhərində Şəhidlər xiyabanı ziyarət edilib. Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən ziyarətdə şəhərin hüquq-mühafizə, bələdiyyə orqanlarının, dövlət təşkilatlarının nümayəndələri və şəhər ictimaiyyəti iştirak ediblər.**

Ziyarət zamanı Vətən uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi dərin hörmət və ehtiramla anılıb, onların ruhuna dualar oxunub, məzarlarının üzərinə gül dəstələri düzülüb. Allahdan şəhidlərimizə rəhmət, ailələrinə səbir, qazilərimizə və müharibə veteranlarına isə şəfa diləniib.

Həmin gün şəhərdə Anım Günü münasibətilə müxtəlif tədbirlər də keçirilib.

## Şirvan



**Şirvan şəhərində də Anım Günü münasibətilə silsilə tədbirlər keçirilib. Şəhidlər xiyabanı və “Şəhid anası” memorial abidəsi ziyarət olunub, şəhidlərin ruhuna dualar oxunub.**

Çıxış edənlər 27 sentyabrın Anım Günü elan edilməsinin şəhidlərin müqəddəs xatirəsinə ehtiramın ən yüksək təzahürü olduğunu vurğulayıblar. 44 günlük Vətən müharibəsinin gedişindən, Azərbaycan Ordusunun qəhrəmanlığından, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə qazanılan tarixi Zəfərdən bəhs edilib.

## Şəki



**Anım Günündə Şəki Şəhər İcra Hakimiyyətinin, hüquq- mühafizə orqanlarının rəhbərləri, ictimaiyyətin nümayəndələri ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Şəhidlərin Xatirə Kompleksinin yerləşdiyi məzarlığı ziyarət edib, şəhid məzarları önünə əklil və gül dəstələri qoyublar.**

Mərasimdə bildirilib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının canı-qanı bahasına, əsgər və zabitlərimizin, cəbhəyə könüllü gedən vətənpərvər gənclərimizin igidliyi nəticəsində tariximizə yazılmış şanlı salnamədir.

Vurğulanıb ki, artıq Azərbaycan bütün dünyada qalib dövlət, xalqımız isə məğrur xalq kimi tanınır.

## Ağdam

**Anım Günü münasibətilə Ağdam Dövlət Dram Teatrının Ağdam şəhərindəki binasının qalıqları**



**qarşısında tamaşa nümayiş olunub. Teatrının aktyorlarının təqdim etdikləri "Günahsızlar" tamaşası Qarabağ hadisələrinə həsr olunub.**

Ağdam şəhərindəki Şəhidlər xiyabanında isə şəhidlərin əziz xatirəsi ehtiramla anılıb. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin, Ağdam rayon polis şöbəsinin və digər dövlət qurumlarının, tikinti şirkətlərinin əməkdaşları, doğma yurda qayıtmış sakinlər şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

## Şamaxı

**Anım Günündə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsini rayon ictimaiyyətinin nümayəndələri ehtiramla yad ediblər.**

Şəhidlər xiyabanı ziyarət olunub, Vətən qurbanlarının məzarları üzərinə tər çiçəklər düzülüb və şəhid ailələrinə baş sağlığı verilib. Daha sonra Şamaxı Rayon İcra Hakimiyyəti və Milli Məclisin deputatı Tamam Cəfərovanın təşəbbüsü ilə Şamaxı Cümə Məscidində şəhidlərin xatirəsinə ehsan süfrəsi təşkil edilib.

## Zaqatala

**Anım Günü ilə əlaqədar Zaqatalada “Torpaq uğrunda ölən varsa, Vətəndir” adlı mərasim keçirilib. Şəhər qəbiristanlığında şəhid məzarları, “Zəfər kompleksi” abidəsi və Şəhidlər xiyabanı ziyarət edilib.**



Çıxış edənlər 44 gün davam edən Vətən müharibəsində, eləcə də ötən il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirlərində rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı tarixi Qələbədən, Zəfərlə başa çatan müharibədə Vətənimizin igid oğullarının göstərdikləri qəhrəmanlıqlardan danışıblar. Çıxışlarda vurğulanıb ki, Vətən müharibəsi xalqımızın qələbəsi və Zəfəri kimi nəsillər ötdükcə ürəklərdə yaşayacaq.

## Göyçay



**Göyçayda keçirilən Anım günündə rayon rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, Vətən müharibəsi əlilləri və iştirakçıları, eləcə də rayon sakinləri iştirak ediblər.**

Şəhidlərin portretləri əks olunmuş yeni memorial abidəyə əklil qoyulub və şəhid ailələrinin üzvləri ilə səmimi söhbət aparılıb. Şəhidlərin ruhlarına dualar oxunub.

Mərasimdə qeyd edilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, milli ordunun rəşadəti, xalq və dövlətin birliyi, Vətən qarşısında borclarını layiqincə yerinə yetirən qəhrəman şəhidlərimizin sayəsində Azərbaycan bütöv olub, Qarabağ həsrəti bitib.

Sonda şəhidlərin xatirəsinə ağacəkmə kampaniyası keçirilib.

## Xaçmaz

**Xaçmazda anım mərasimində Şəhidlər xiyabanında alovlanan məşəlin önünə əklil qoyulub, Azərbaycanın Milli Qəhrəmanı Yavər Şahbazovun büstü ziyarət edilib, şəhidlərin xatirə lövhələri önünə tər qərənfillər düzülüb.**

Rayon rəhbərliyinin şəhid ailələri ilə görüşündə Vətənimizin ərazi bütövlüyünün və dövlət suverenliyinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, iradəsi, şəhidlərimizin qəhrəmanlığı və xalqımızın birliyi sayəsində tam bərqərar olduğu qeyd edilib.

Şəhid ailələri və qazilər göstərilən diqqət və qayğıya görə prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

## Laçın

**Anım Günü münasibətilə Laçın rayonunda “Zəfər yolunun unudulmaz izləri” adlı mərasim təşkil olunub.**

Çıxış edənlər bildiriblər ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimizin əziz xatirəsini dərin hörmət, ehtiramla yad edirik və onların ruhu qarşısında baş əyirik: “Onların fədakarlığı sayəsində Azərbaycan bayrağı Laçında, Şuşada, bütün Qarabağda və Şərqi Zəngəzurda dalğalanır. Onların qəhrəmanlığı sayəsində biz sülh, təhlükəsizlik və quruculuq dövründə yaşayırıq”.

Sonra şəhidlərin ruhuna dualar oxunub.

“LaCinema” kino mərkəzində davam edən tədbirin bədii hissəsində gənc rəssam Fuad Musayevin əsərlərindən ibarət “Zəfər rənglərdə” adlı sərgi nümayiş etdirilib.

## Zəngilan

**Anım Günü münasibətilə Zəngilan Şəhidlər xiyabanı ziyarət edilib, Vətən uğrunda canından keçən qəhrəmanlarımızın məzarlarına gül dəstələri qoyulub.**

Mərasimin davamında Qarabağ Dirçəliş Fondunun təşkilatçılığı ilə Zəngilan Şəhidlər xiyabanı ətrafında ağacəkmə aksiyası keçirilib.

Müasir damcı suvarma sistemi çəkilən ərazidə 140 ədəd Leyland sərvi, 100 ədəd Xan çinarı, 100 ədəd Eldar şamı, 50 ədəd isə Parlaq birgöz ağacı olmaqla, ümumilikdə 390 ədəd ağac əkilib.

*Səhifəni hazırladılar:*
*Tahir AYDINOĞLU,*
*İlqar HƏSƏNOV,*
*Səbuhi HƏSƏNOV,*
*Mahir RƏSULOĞLU*
*XQ*



*Müsahibə*

# Gürcüstan milli maraqlarını qorumağa qadirdir

**Gürcüstanda 4 oktyabrda keçiriləcək yerli seçkilər öncəsi ölkənin ictimai-siyasi həyatında canlanma müşahidə olunur. Bu seçkilər təkcə bələdiyyə səviyyəsində idarəetmənin formalaşdırılması üçün deyil, həm də ölkənin sabitlik və inkişaf yolunda irəliləməsi baxımından əhəmiyyət kəsb edir.**







**Gürcütan parlamentinin sabiq deputatı, Gürcüstan azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İcak Novruzovla söhbətimiz ölkənin daxili siyasi sabitliyi, gələcək inkişafı, eləcə də qarşıdan gələn seçkilər barədədir. İsak müəllim sözün seçkidən başladı:**

– Hazırkı hakimiyyətin seçkilərdə qalib gəlmək şansı real və yüksək qiymətləndirilir. Bu, ilk növbədə son illər ölkədə təmin edilən sabitlik və təhlükəsizlik mühitinə ictimai dəstəyin formalaşması ilə bağlıdır. Elektorat uzun illərdir müharibə və xaosdan uzaq, real və davamlı inkişaf vəd edən siyasəti dəstəkləməyə daha çox meyllidir. Seçki kampaniyasının effektiv təşkili, səfərbərlik və mesajların çatdırılmasında iqtidarın daha çevik və sistemli hərəkət etdiyi müşahidə olunur. Eyni zamanda, onlar təbliğatlarını daha çox görülən işlərə, o cümlədən sosial proqramlara, infrastruktur layihələrinə və regional inkişaf təşəbbüslərinə yönəldirlər. Bu da seçicilər üçün çox önəmlidir.

Xarici müdaxilələrə qarşı sərgilənən qətiyyətli mövqe də iqtidarın xalqa verdiyi əsas mesajlardandır. Qərbdəki bəzi dairələrin Gürcüstanın daxili siyasi proseslərinə dolayı təsir göstərmək cəhdləri ictimai rəyə mənfi təsir edib. Bu təzyiqlər fonunda hakimiyyətin milli maraqlara əsaslanan siyasi mövqeyi cəmiyyətin geniş təbəqələri tərəfindən müsbət qarşılanır və bu, seçki davranışına da əhəmiyyətli dərəcədə təsir göstərir. Yəni bu amillər Gürcüstanda hazırkı hakimiyyətin qarşıdan gələn yerli seçkilərdə qalib gəlmək üçün həm siyasi, həm də təşkilati baxımdan şanslı olduğuna dəlalət edir.

**– Gürcüstanda yerli seçkilər öncəsi siyasi mənzərə fonunda hökumətin sabitlik və təhlükəsizlik siyasəti ilə müxalifətin parçalanmış və qeyri-müəyyən mövqeyi arasında hansı fərqlər var?**

– Gürcüstan rəhbərliyinin son illər yürütdüyü müstəqil siyasət, milli maraqları ön plana çəkməsi bəzi xarici dairələr tərəfindən birmənalı qarşılanmır. Xüsusilə də bəzi ölkədəki bəzi Qərb səfirlərinin və qurumlarının siyasi proseslərə birbaşa müdaxilə cəhdləri artır. Uzun illər ərzində müxtəlif Qərb fondları və təşkilatları "təhsil", "vətəndaş cəmiyyəti", "inkişaf" adı altında Gürcüstanda müxtəlif layihələr həyata keçiriblər. Başlanğıcda bu proqramlar müsbət təqdim olunsa da, zaman keçdikcə onların arxasında duran niyyətlər daha aydın görünməyə başlayıb. Bu layihələrin əsas məqsədi ictimai rəyi manipulyasiya etmək, gənclər arasında dövlətə qarşı etimadsızlıq formalaşdırmaq və hakimiyyətin legitimliyini zəiflətmək olub. "İnsan hüquqları", "azad media", "demokratiya təşviqi" kimi mövzular ətrafında qurulan fəaliyyətlər, əslində, Gürcüstanın daxili siyasi mühitinə təsir etməyə, cəmiyyətdə süni gərginlik yaratmağa hesablanmışdı. Bu gün həmin təsirlər əhəmiyyətli dərəcədə zəifləyib. Gürcüstan dövləti bu cür təşkilatların və onların arxasında dayanan xarici maraqların mahiyyətini dəqiq tanıyır. Cəmiyyətin özü də bu fəaliyyətlərə əvvəlki qədər loyal yanaşmır, insanlar artıq konkret nəticələr, sabitlik və rifah istəyirlər.

Yerli seçkilər öncəsi müxalifətin parçalanmış və qeyri-ciddi mövqeyi ictimai rəyə təsir edə bilmir. Başlanğıcda radikal müxalifət seçkilərə qatılmayacağını bildirsə də, sonradan bəzi partiyalar qərarını dəyişib iştirak edəcəyini açıqladı. Lakin bu proseslər bir daha göstərdi ki, müxalifət daxilində nə birlik var, nə də ortaq siyasi baxışlar. Birləşmək cəhdləri nəticəsiz qaldı, çünki onlar nə konkret proqramlara, nə də ortaq strateji hədəflərə malikdirlər. Liderlər arasında şəxsi ambisiyalar və siyasi karyera uğrunda rəqabət bu düşərgədə vahid mövqe formalaşmasına imkan vermir. Əvvəlki illərdə cəhd edilən ittifaqlar və bloklar uğursuz nəticələndiyindən, tərəflər arasında etimadsızlıq daha da dərinləşib və bu gün bu keçmiş təcrübələr yeni əməkdaşlıqların qarşısında psixoloji və siyasi baryerə çevrilib.

Xüsusi diqqət çəkən məqamlardan biri keçmiş baş nazir Giorgi Qaxariyanın rəhbərlik etdiyi partiyanın davranışıdır. Qaxariyanın seçkilər öncəsi ölkəni tərk etməsi və siyasi məsuliyyətdən yayınması müxalifətin qeyri-ciddi və qeyri-sabit xarakterini bir daha ortaya qoydu. Hazırda müxalif qüvvələr seçkilərdə qələbə və ya dinc yolla hakimiyyətə gəlmək barədə bəyanatlar versələr də, bu iddiaların real ictimai dəstəyə söykənmədiyi aydındır.

Belə bir mənzərədə xalq qarşısında real seçim durur: Ya ölkəni sabit şəkildə idarə edən, təhlükələrə qarşı qətiyyətli mövqe nümayiş etdirən iqtidara dəstək vermək, ya da reallıqdan uzaq, parçalanmış və məsuliyyətsiz müxalifətin populist çağırışlarına uymaq. Seçim, təbii ki, Gürcüstan xalqınındır. Lakin cəmiyyətin böyük əksəriyyəti bu gün artıq daha aydın görür ki, sabitlik və inkişaf naminə aparılan siyasət, konkret nəticələr verən fəaliyyətlər onlar üçün daha önəmlidir.

**– Xarici diplomatlar, hətta bəzi səfirlər öz mandat və səlahiyyətlərini aşan addımlar atırlar. Bu barədə nə deyərdiniz?**

– Böyük Britaniyanın Gürcüstandakı səfiri Qaret Uordun, ondan öncə isə Almaniyanın səfiri Peter Fişerin Xarici İşlər Nazirliyinə çağırılması Gürcüstan hökumətinin ölkənin daxili işlərinə yönəlmiş müdaxilələrə qarşı sərgilədiyi prinsipial mövqenin bariz nümunəsidir. Diplomatik münasibətləri tənzimləyən 1961-ci il Vyana Konvensiyasının 41-ci maddəsi aydın şəkildə göstərir ki, diplomatik nümayəndələr fəaliyyət göstərdikləri ölkənin qanun və qaydalarına hörmətlə yanaşmalı, daxili proseslərə müdaxilədən çəkinməlidirlər. Təəssüf doğuran hal odur ki, bəzi diplomatik nümayəndəliklər ölkədə siyasi və ictimai proseslərə aktiv şəkildə müdaxilə etməyə, radikal gündəmləri təşviq etməyə, hətta məhkəmə sisteminin işinə təsir göstərməyə çalışırlar. Bu cür addımlar nə beynəlxalq hüququn ruhuna uyğundur, nə də Gürcüstanın suverenliyinə hörmətlə bağlaşır.

Xüsusilə vurğulanmalıdır ki, səfirlərin radikal siyasi elementləri dəstəkləməsi, daxili siyasi prosesləri açıq şəkildə tənqid etməsi, hökumət və parlamentə qarşı yönəlmiş təxribat xarakterli bəyanatlar verməsi Gürcüstan cəmiyyətində parçalanmanı dərinləşdirmək və ölkədə sabitliyi pozmaq məqsədi daşıyır. Bu isə demokratiyanın fundamental prinsiplərinə ziddir.

Gürcüstan dövləti açıq və şəffaf xarici siyasət yürüdür, beynəlxalq tərəfdaşları ilə qarşılıqlı hörmət və bərabərlik əsasında əməkdaşlığın inkişafında maraqlıdır. Lakin heç bir halda xarici dairələrin daxili işlərimizə müdaxiləsinə göz yumulmayacaq. Gürcüstanın siyasi müstəqilliyi və məhkəmə hakimiyyətinin qərəzsiz fəaliyyəti hər cür xarici təzyiqdən qorunmalıdır.

**– Gürcüstandakı azərbaycanlı seçicilərin 4 oktyabr yerli bələdiyyə seçkilərinə fəal hazırlaşdıqları barədə eşidirik...**

– Bəli, kimsənin şübhəsi olmasın, azərbaycanlılar bu seçkilərdə yüksək fəallıq göstərəcək. Bu, onların hüquqi, mədəni və sosial ehtiyaclarının təmin olunması üçün vacib addımdır. Seçkilərdə iştirak həm də vətəndaşlıq borcudur, gələcəyimizə verilən ən böyük töhfədir. Gürcüstanda çoxmillətli cəmiyyət uğurla qurulur və azərbaycanlıların seçkilərdə fəal olması onların yaşadıqları yerlərin inkişafına və rifahına birbaşa təsir edir. Bu, onların ölkənin demokratik dəyərlərinə və bərabərlik prinsiplərinə sadiqliyini göstərir.

Azərbaycanlıların bu fəallığı həm də etnik azlıqların siyasi təmsilçiliyinin artırılması, onların səsinin daha geniş dinlənməsi deməkdir. Bu, ölkədə mövcud etnik müxtəliflik şəraitində sosial sabitliyin və harmoniyanın qorunmasına xidmət edir. Unutmayaq ki, azərbaycanlıların seçkilərdə fəal iştirakı həm də Azərbaycan–Gürcüstan dostluğunun və tərəfdaşlığının möhkəmlənməsinə təkan verir. Qarşılıqlı hörmət və əməkdaşlıq çoxmillətli Gürcüstanın siyasi sabitliyinin və rifahının təminatıdır.

Bu seçkilərin həm Gürcüstanın demokratik inkişafına, həm də Azərbaycan–Gürcüstan münasibətlərinin güclənməsinə töhfə verəcəyinə əminəm. Bu proses, eyni zamanda, regionda sabitlik və davamlı inkişaf üçün vacib olan etnik həmrəylik və qarşılıqlı hörmətin möhkəmlənməsinə xidmət edir.

**– Azərbaycanlı seçicilər əsasən hansı siyasi partiyaya dəstək verirlər? Ölkələrarası münasibətlərin onların seçiminə təsiri varmı?**

– Son illər aparılan müşahidələr və ictimai rəy sorğuları göstərir ki, Gürcüstanda yaşayan azərbaycanlı seçicilərin əksəriyyəti hakim "Gürcü Arzusu" partiyasına üstünlük verir. Bu tendensiya təsadüfi deyil və bir sıra obyektiv səbəblərlə izah olunur. Bu səbəblərdən biri hakim partiya hökumətinin etnik azlıqlara, xüsusilə azərbaycanlılara qarşı göstərdiyi diqqət və inteqrasiya siyasətidir. Hakimiyyətin yerli azərbaycanlıların hüquqlarının qorunması, onların təhsil, infrastruktur və sosial rifah sahəsindəki ehtiyaclarının qarşılanması istiqamətində atdığı real addımlar bu seçicilərdə inam yaradıb. Azərbaycanlılar hesab edirlər ki, mövcud iqtidar onların Gürcüstan cəmiyyətində tamhüquqlu iştirakına şərait yaradır. Son illərdə azərbaycanlıların sıx yaşadığı bölgələrdə məktəb, xəstəxana və yol infrastrukturu sahəsində əhəmiyyətli layihələr həyata keçirilib. Gürcü və Azərbaycan dillərində paralel təhsil imkanları genişlənib, dövlət qurumlarında azərbaycanlıların iştirakı artıb. Bütün bunlar "Gürcü Arzusu"-nun real işlərə söykənən siyasətinin nəticəsi kimi qiymətləndirilir.

Şübhəsiz, Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq əlaqələri də bu məsələdə mühüm rol oynayır. Gürcüstan hökumətinin Azərbaycanla səmimi və balanslı münasibətləri azərbaycanlı seçicilərdə həm etimad, həm də milli həmrəylik duyğusunu gücləndirir. Gürcüstandakı azərbaycanlılar yaxşı anlayırlar ki, bu münasibətlərin qorunması həm regionun sabitliyi, həm də onların şəxsi rifahı baxımından vacibdir.

Bəli, "Gürcü Arzusu" partiyası təkcə siyasi şüarlarla deyil, konkret iş və nəticələrlə azərbaycanlıların etimadını qazanıb. Bu gün Gürcüstanın çoxmillətli cəmiyyətində azərbaycanlılar bu partiyanın bərabərlik, sabitlik və inkişaf xəttini dəstəkləyir və bu mövqelərini seçki qutusunda səs verməklə ifadə edirlər.

Bütün bu amillər bir yerdə götürüldükdə, Gürcüstanda hazırkı hakimiyyətin qarşıdan gələn yerli seçkilərdə qalib gəlmək üçün həm siyasi, həm də təşkilati baxımdan əlverişli mövqedə olduğu görünür. Cəmiyyətin böyük əksəriyyəti bu gün sabitliyin və rifahın davam etdirilməsini prioritet hesab edir. Bu isə seçki nəticələrinin hansı istiqamətdə formalaşacağı ilə bağlı müəyyən siqnalları indidən ortaya qoyur.

***Söhbəti qələmə aldı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Sarkozi dosyesi: korrupsiya hüquqi normalara necə müdaxilə edir?

## *Fransada prezidentliyə namizədlərin fəaliyyətində şübhə doğuran hadisə*

**Fransanın sabiq prezidenti Nikola Sarkozinin həbsi həm ölkə daxilində, həm də beynəlxalq aləmdə geniş rezonans doğurub. Paris Cinayət Məhkəməsi müəyyən edib ki, o, 2005–2007-ci illərdə mərhum Liviya lideri Müəmmər Qəddafidən milyonlarla avro məbləğində qanunsuz maliyyə dəstəyi alıb. Nəticədə sabiq prezident "cinayətkar sövdələşmə"də təqsirli bilinərək 5 il müddətinə azadlıqdan məhrum olunub. Buna baxmayaraq, Sarkozi bütün ittihamları rədd edir və bildirir ki, məhkəmə prosesi siyasi motivlidir. Sarkozinin arqumentinə görə, 2011-ci ildə Fransanın Qəddafi rejiminə qarşı beynəlxalq hərbi koalisiyaya qoşulması Liviyanın keçmiş hakim elitasında qisas istəyi doğurub və bugünkü ittihamların kökündə məhz həmin motivlər dayanır.**



ARAYIŞ: 71 yaşın içində olan Nikola Sarkozi 2007-ci ildə keçirilən prezident seçkilərində səs çoxluğu ilə qalib gələrək Fransanın dövlət başçısı olub. Onun hakimiyyəti dövrü daxili siyasətdə sərt islahatlar, Avropa İttifaqı ilə münasibətlərdə daha praqmatik, bəzən populist mövqe ilə yadda qalıb. Sarkozinin şəxsi həyatı da daim medianın diqqət mərkəzində idi. Model və müğənni Karla Bruni ilə evliliyi uzun müddət ictimai müzakirə mövzusu olub. Prezidentlik müddəti başa çatdıqdan sonra da Sarkozi sağ-mühafizəkar düşərgədə nüfuzlu fiqur olaraq qalırdı. Lakin son illər barəsində açılan cinayət işləri, korrupsiya ittihamları onun siyasi imicini sarsıtdı. Bu ilin əvvəlində ona verilmiş ən yüksək dövlət mükafatı – Şərəf Legionu ordeninin geri alınması isə prosesin rəmzi nəticəsi kimi qiymətləndirilir.

Sarkozinin məhkumluğu Fransada siyasi elitanın toxunulmazlıq dövrünün bitməsi ilə bağlı bəzi suallar doğurur. Ümumiyyətlə, məhkəmə prosesi təkcə sabiq prezidentin həbsi ilə məhdudlaşmır, hadisə həm də Fransada siyasi maliyyələşmənin şəffaflığı barədə müzakirələri gücləndirir, siyasi qütbləşməni artırır. Çünki sağ-mühafizəkar elektoratın bir qismi hələ də Sarkozini "siyasi qurban" kimi görür. Ona qarşı ittihamlar bunlarla bitmir. Prokurorların təqdim etdiyi ittiham aktına görə, hələ daxili işlər naziri olduğu dövrdə, o, Liviya rəhbərliyi ilə gizli razılaşmaya gedib. İddialara əsasən, Qəddafi hökumətinə beynəlxalq arenada siyasi dəstək verilməsi müqabilində Sarkozinin prezident seçki kampaniyası üçün milyonlarla avro ayrılıb. Prokurorluq iddia edir ki, bu maliyyə əməliyyatları kriminal şəbəkələr vasitəsilə həyata keçirilib. Sənədlərə görə, çamadanlarla Parisə gətirilən nağd pulların daşınmasında Liviya casusları, terrorçular və silah alverçiləri iştirak ediblər. Beləliklə, 10 ildən artıq aparılan araşdırmanın nəticəsi olaraq Sarkoziyə qarşı dörd əsas ittiham irəli sürülüb: Dövlət vəsaitlərinin mənimsənilməsini gizlətmək; passiv korrupsiya; qanunsuz seçki kampaniyasını maliyyələşdirmək; cinayət törətmək məqsədilə sui-qəsd. Sarkozi ilə birlikdə daha 11 nəfər mühakimə olunub. İttiham olunanlar arasında Liviya ilə əlaqələrin əsas vasitəçilərindən biri sayılan iş adamı Ziyad Takiyuddin, sabiq daxili işlər naziri və Sarkozinin yaxın köməkçisi Klod Gean, seçki kampaniyasının maliyyə rəhbəri Erik Vuert, eləcə də sabiq nazir Bris Hortefö də yer alıb. Takiyuddinin bu işdə açar rol oynadığı vurğulanır. O, 2020-ci ildə başqa bir korrupsiya işinə görə beş il azadlıqdan məhrum edildikdən sonra Fransadan qaçıb Livana sığınmışdı. Amma Sarkozinin hökmünün elan olunmasına cəmi iki gün qalmış qəfil vəfatı məhkəmə prosesinə əlavə müəmmalar gətirdi. Çünki Takiyuddin illər boyu həm Sarkoziyə qarşı ittihamların əsas şahidi, həm də korrupsiya şəbəkəsinin birbaşa iştirakçısı sayılırdı.

Nikola Sarkoziyə qarşı korrupsiya və qanunsuz maliyyələşdirmə ittihamlarının kökü 2011-ci ilə gedib çıxır. Həmin vaxt Liviya dövlət xəbər agentliyi iddia etmişdi ki, mərhum lider Müəmmər Qəddafi hökuməti 2007-ci il Fransada prezident seçkilərində Sarkozinin kampaniyasına milyonlarla avro vəsait ayırıb. Bu iddialar sonrakı illərdə daha da gücləndi. 2014-cü ildə "France 24" kanalı Qəddafinin "France 3 TV"-yə verdiyi müsahibəni yayımladı. O, həmin çıxışında açıq şəkildə bildirmişdi: "Sarkozi zehni cəhətdən naqisdir. Onun prezident olması mənim sayəmdə mümkün oldu. Biz ona qələbə qazanması üçün lazım olan pulları verdik". Elə həmin il Qəddafinin oğlu Seyf əl-İslam da "Euronews"-a müsahibəsində atasının dediklərini təsdiqləyərək Sarkozini "Liviyanın pullarını mənimsəməkdə" günahlandırmışdı. 2012-ci ildə araşdırmaçı media orqanı "Mediapart" Liviya xüsusi xidmətlərinə aid olduğu iddia olunan sənəd dərc etdi. 2006-cı ilin dekabrında imzalandığı bildirilən bu sənəddə Qəddafinin Sarkozinin kampaniyasına 50 milyon avro ayırmağa razılıq verdiyi qeyd olunurdu. Sarkozi dərhal açıqlama verərək sənədi saxta adlandırdı. 2016-cı ildə isə livan əsilli iş adamı Ziyad Takiyuddin "Mediapart"-a açıqlamasında Liviya tərəfindən Sarkoziyə və onun kabinet rəhbərinə 5 milyon avro nağd pul çatdırdığını etiraf etdi. Lakin o, 2020-ci ildə Livana qaçdıqdan sonra ifadəsini geri götürdü. Bu dəyişiklik işin hüquqi tərəflərini mürəkkəbləşdirdi.

Bir məqamı da xatırladaq ki, Sarkozinin Qəddafi ilə münasibətləri paradoksal olub. 2007-ci ildə o, Liviya liderini Yelisey sarayında rəsmi şəkildə qəbul etmişdi. Amma cəmi dörd il sonra–"ərəb baharı" zamanı demokratiya tərəfdarlarının etirazları başlayanda Qəddafiyə qarşı hərbi müdaxiləni dəstəkləyən ilk Qərb liderlərindən biri məhz Sarkozi idi. Sarkozinin adı başqa qalmaqallarda da hallanır. 2023-cü ilin oktyabrında prokurorlar onu şahid ifadələrinə təsir göstərməkdə ittiham etdilər. 2024-cü ildə isə həyat yoldaşı Karla Bruni də sübutları gizlətməkdə şübhəli bilinərək məsuliyyətə cəlb olundu. Əslində, hadisələri dərindən analiz etdikdə görürük ki, bu hökm Sarkozinin üçüncü məhkumluğudur. 2021-ci ildə o, "rüşvət və nüfuza təsir göstərmə" ittihamı ilə bir il ev dustaqlığına məhkum edilib. Paris Apellyasiya Məhkəməsi 2023-cü ildə onun 2012-ci il uğursuz seçki kampaniyasında xərcləri bilərəkdən aşması ilə bağlı qərarı təsdiqləmiş, nəticədə Sarkozi altı ay həbs cəzası, əlavə olaraq isə şərti məhkumluq almışdı.

***Nəzrin ELDARQIZI***
***XQ***

**Ekspert rəyi**



**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin sədri**

Hələ Fransa prezidentliyinə namizəd olduğu dövrdə Nikola Sarkozi Liviya liderindən dünyada qeyri-legitim hesab olunan və hətta Fransa tərəfindən də legitimliyi tanınmayan bir şəxsdən seçki kampaniyasını maliyyələşdirmək üçün böyük məbləğdə pullar alıb. Söhbət milyonlarla avrodan gedir. Məlumatlarda böyük məbləğdən bəhs edilir. Ehtimal olunur ki, Fransa dövləti bu məbləğin tam açıqlanmasının dövlətin imicinə zərər verəcəyini nəzərə alaraq, bəzi detalların məhkəmə işində əks etdirilməməsinə qərar verib. Prezidentliyə namizəd baxımından isə məsələ çox ciddidir. Çünki özünü insan hüquqları və demokratiyanın beşiyi kimi qələmə verən Fransanın namizədi legitimliyi şübhə altında olan bir xarici liderdən aldığı pulları seçki təşviqatında istifadə edib. Bu fakt həm də seçki prosesinin şəffaflığını şübhə altına alır. Nikola Sarkozi Fransa tarixində ilk dəfə eks-prezident olaraq məsuliyyətə cəlb edildi və barəsində 5 ilə qədər azadlıqdan məhrumetmə cəzası tətbiq olundu. Onun həbsi Fransa siyasətində presedent yaradır və dövlətin imicinə ciddi təsir göstərəcək.

Digər ölkələrə insan hüquqları, demokratiya və seçki şəffaflığı dərsi keçməyə çalışan ölkənin tarixində belə ağır və xoşagəlməz halların yaşanması Fransanın nüfuzuna kölgə salır. Cinayətkar sövdələşməyə görə, Sarkozi Qəddafinin pulu hesabına prezident seçkilərində qalib gəlib, onun hakimiyyətini legitimləşdirməyi planlaşdırırdı. Lakin nəticədə Fransa və digər qərb dövlətləri Liviyanı bombardman edərək Qəddafinin hakimiyyətdən devrilməsinə və öldürülməsinə səbəb oldular. Hadisə təkcə Fransa–Liviya münasibətləri üçün deyil, Qərb dövlətlərinin xarici siyasətinin, xüsusilə hakimiyyətlərə dəstək və müdaxilə prinsiplərinin qiymətləndirilməsi baxımından da əhəmiyyətlidir.

# Ali Baş Komandanın müharibə startegiyası

## *Lider – Xalq – Ordu birliyinin Zəfər yürüşü*

**Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının 2020-ci il sentyabrın 27-də keçirilən iclasında dövlətimizin başçısı çıxışında həmin gün səhər tezdən Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribat törətdiyini, bunun nəticəsində həm mülki əhali, həm də hərbçilər arasında itkilər olduğunu bildirdi. Ölkə rəhbəri daha sonra bu təxribatla Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin davam etdirildiyini və belə bir siyasətin Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərdiyini vurğuladı.**



Dövlətimizin başçısı Ermənistanın hərbi təxribatının planlaşdırılmış təxribat olduğunu diqqətə çatdıraraq dedi: "Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir. Mən bu məsələ ilə bağlı artıq son bir həftə ərzində bir neçə dəfə həm televiziya kanallarında müsahibəmdə, eyni zamanda, BMT kürsüsündən çıxış edərkən öz fikirlərimi bildirmişdim və demişdim ki, təcavüzkar dövlət dayandırılmalıdır".

Prezident İlham Əliyev bununla əlaqədar sentyabrın 27-də xalqımıza müraciət etdiyini, təxribatın səbəbləri, habelə son saatlarda Ermənistanın işğalçılıq addımları, bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan Azərbaycanın mövqelərini, yaşayış məntəqələrini atəşə tutduğunu bildirdi. Eyni zamanda, belə əməllərin Ermənistanın, Ermənistan faşizminin eybəcər sifətini göstərdiyini, dinc əhaliyə qarşı bu cür qəddarlığın ancaq faşist dövlətlərinə aid olduğunu xatırlatdı.

Ölkə rəhbəri çıxışında Ermənistan tərəfindən əvvəllər də əliyalın əhaliyə qarşı belə vəhşiliklər törədildiyini qeyd edərək, əsas hədəfin bizim yaşayış məntəqələri olduğunu vurğuladı. Dövlət başçısı daha sonra dedi: "Tovuz hadisələrində, ondan sonra digər hadisələrdə, Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, – bu gün səhər mən bütün bölgələrdən, cəhbəyanı bölgələrdən məlumat almışam, –Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".

Qeyd edək ki, Ermənistan XX əsrin 80-ci illərinin sonları – 90-cı illərinin əvvəllərindən etibarən Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları ilə çıxış edərək ölkəmizə qarşı hərbi təcavüzə başladı. Həmin dövrdə respublikamızda hökm sürən hərc-mərclikdən yararlanan Ermənistan torpaqlarımızın 20 faizini qəsb etdi, işğalçı ölkənin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşdü. Belə bir hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin reallaşdırılması üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi bu ölkənin destruktiv mövqeyi üzündən heç bir nəticə vermədi. Eyni zamanda, Ermənistan hərbi-siyasi rəhbərliyinin davamlı olaraq təxribatçı bəyanatları da sülh istiqamətində aparılan danışıqlar prosesini pozdu.

Azərbaycan 30 ilə yaxın müddətdə Ermənistanla danışıqlar apararaq Ermənistan – Azərbaycan münaqişəsini sülh yolu ilə nizamlamağa çalışdı. Danışıqlar nəticəsiz qaldı və Ermənistan tərəfinin, sadəcə olaraq, vaxt udmaq istədiyi, status-kvonu möhkəmləndirməyə, əbədi etməyə çalışdığı aydın şəkildə müşahidə edildi. Təbii ki, Azərbaycan işğalla barışa bilməzdi və barışmadı. Ötən müddət ərzində ümummilli lider Heydər Əliyev uzaqgörənlik və müdrikliklə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün böyük işlər gördü, sağlam təməllər yaratdı. Azərbaycan dəfələrlə Ermənistanı işğal etdiyi ərazisini geri qaytarmağa çağırdı, işğalçı isə nəinki bu çağırışlara məhəl qoymadı, əksinə, yeni Azərbaycan torpaqlarını qəsb etməyə həvəsləndi, ardıcıl hərbi təxribatlar törətmək yolunu seçdi. Ermənistan danışıqlar prosesinin formatını və məzmununu rədd etməklə, danışıqların imitasiyasını aparmaqla, BMT TŞ-nin qətnamə və qərarlarının icra etməməklə sülhə qarşı çıxdığını açıq şəkildə ortaya qoydu.

Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması Ermənistanın işğalçılıq siyasətinin ən bariz etiraflarından birinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına "Qarabağ Azərbaycandır və nida işarəsi" deməklə sərt reaksiya verdi.

Prezident İlham Əliyev çıxışlarının birində bu dövrü aydın şəkildə təsvir edib: "Bəli, onlar Dağlıq Qarabağı müstəqil dövlət adlandırdılar, növbəti mərhələdə yeni xəritələr çap etdilər və bütün ətraf rayonlarımızı Dağlıq Qarabağ adlandırmağa başladılar. Şəhər və kəndlərimizin adları dəyişdirildi və nəhayət, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələməyə başladılar. Bunu deyən onların Tonoyan soyadlı müdafiə naziri idi. O bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır".

Onu da deyək ki, 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi isə regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi. 2020-ci ilin avqust ayında Ermənistan daha bir hərbi təxribata əl ataraq, terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi. Lakin Azərbaycan Ordusu bu təxribat planını da pozdu.

2020-ci il sentyabrın 24-də Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşması barədə dünya birliyini yenidən xəbərdar etdi: "Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib… Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Beləliklə, 2016-cı ilin Aprel, 2020-ci ilin İyul döyüşlərindən Ermənistanın hərbi-siyasi rəhbərliyi lazımi dərs çıxarmadı və vəziyyəti daha da gərginləşdi. 2020-ci il sentyabrın 27-də isə yuxarıda vurğulandığı kimi, Ermənistan növbəti irimiqyaslı hərbi əməliyyatlara başladı, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirdi. Buna cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan "Dəmir yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.

Azərbaycan Prezidenti 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin gedişində xalqa ilk müraciətində bütün cəmiyyəti qəti qələbəyə köklədi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". Oktyabrın 4-dəki xalqa ikinci müraciətində Prezident İlham Əliyev düşmənə öz yerini göstərdi: "İndi biz göstərdik kim-kimdir… Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!". Oktyabrın 9-dakı xalqa üçüncü müraciətində Azərbaycan Prezidenti status-kvonun artıq olmadığını və təmas xəttinin yarıldığını elan etdi: "Mən dəyişdirdim status–kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini… Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz".

Prezident İlham Əliyev 2020-ci il oktyabrın 17-də xalqa növbəti müraciətində raket hücumlarına məruz qalan Azərbaycan şəhərlərinin Ermənistanın dinc əhaliyə qarşı dövlət terrorizmi və vandalizminə müqavimət rəmzinə çevrildiyi mesajını verdi: "Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik".

Oktyabrın 20-də xalqa beşinci müraciətində Azərbaycan Prezidenti əldə edilən nəticələrin düşünülmüş və vaxtında atılmış addımların bəhrəsi olduğunu, tələskənliyin yolverilməzliyini diqqətə çatdırdı: "Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz "Twitter" hesabımda, "Twitter" vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq? Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda, azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda, təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik".

Dövlətimizin başçısı 2020-ci il oktyabrın 26-da xalqa altıncı müraciətində isə Azərbaycan xalqını həlledici qələbəyə yaxın olduğunun müjdəsini verdi: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik".

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər Günü kimi yazıldı. Prezident İlham Əliyev xalqa sayca yeddinci müraciətini Şəhidlər xiyabanından edərək Şuşa şəhərinin işğaldan azad olunmasını Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarına elan etdi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! …Bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq… Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox yaşayış məntəqəsi də işğaldan azad edildi, düşmən diz çökdürüldü, onun kapitulyasiya aktına imza atmaqdan başqa çıxış yolu qalmadı.

2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktı – "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" imzalandı. Prezident İlham Əliyev həmin gün xalqa sayca səkkizinci müraciətində milli şüara çevrilmiş "Qarabağ Azərbaycandır və nida" ifadəsinin artıq bütün Qarabağı əhatə etdiyini və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu bildirdi: "…nə oldu bəs status? …yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!".

Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon – noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. Bu münasibətlə Azərbaycan Prezidenti dekabrın 1-də xalqa müraciətində dedi: "Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Beləliklə, Ermənistan hərbi birləşmələrinin 30 ilə yaxın dövr ərzində işğalda saxlayaraq ərazisində güclü hərbi istehkamlar, maneələr, müdafiə xətləri qurduğu Azərbaycan torpaqları 44 gün ərzində azad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu, Ermənistan-Azərbaycan münaqişəsi tarixə çevrildi.

Beləliklə, Azərbaycan tarixi Zəfər yürüşü ilə özü haqqında məğlubedilməzlik sindromu yaradan Ermənistan silahlı qüvvələrini 44 gün ərzində darmadağın etdi. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək, ən müasir silahlardan yararlanmaqla, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını sıradan çıxardı, canlı qüvvəsinə ciddi zərbə vurdu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi. Prezident İlham Əliyev siyasi iradəsini qəti şəkildə nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası: 28 sentyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks – hücum əməliyyatına başladı. Bu Vətən müharibəsi otuzillik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## Zəfər marafonunun 2-ci günü

– BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında videokonfrans formatında görüş olub. Prezident İlham Əliyev ötən gün Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı hadisələrin gedişinə dair məlumat verib. Qeyd edib ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.



– Prezident İlham Əliyev Azərbaycanda qismən səfərbərlik elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etməlidir.

– 2020-ci il 28 sentyabr saat 00:00-dan etibarən Azərbaycanda hərbi vəziyyət elan olunub. Bu barədə Prezident köməkçisi Hikmət Hacıyev məlumat verib. Bildirib ki, Prezidentin fərmanı ilə hərbi vəziyyət elan olunub: "Prezidentin Milli Məclis qarşısında qaldırdığı vəsatət əsasında qəbul edilən fərman Prezident tərəfindən təsdiqlənib". Belə ki, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Ağstafa, Qazax rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan səhər saat 06:00-dək komendant saatı tətbiq edilir. Sözügedən ərazilərdə şəxslərin xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənədləri olmadan küçələrdə və digər ictimai yerlərdə olmaları qadağan edilir. Eyni zamanda, xüsusi giriş-çıxış



rejimi tətbiq ediləcək və nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.

– Müdafiə Nazirliyi Ermənistan ordusunun üç silah-sursat anbarının, onlarla texnikasının və 550-dən çox canlı qüvvəsinin məhv edildiyi barədə məlumat yayıb. Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalıb. Belə ki, düşmənin 22 tankı və digər zirehli texnikası, 15 "OSA" zenit-raket kompleksi, 18 pilotsuz uçuş aparatı (PUA), 8 artilleriya qurğusu məhv edilib. Müxtəlif istiqamətlərdə düşmənin 3 silah-sursat anbarı məhv edilib.

Talış kəndi ətrafındakı əlverişli yüksəkliklər düşməndən təmizlənib, Ermənistan Ordusunun xeyli sayda canlı qüvvəsi məhv edilib. Talış kəndi istiqamətində gedən döyüşlərdə Ermənistan ordusunun desant həmlə taborunun komandiri podpolkovnik Lernik Babayan məhv edilib. Onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb.

Ermənistan silahlı birləşmələrinin Tərtər Rayon Məhkəməsinin yerləşdiyi əraziyə artilleriya atəşi nəticəsində bir nəfər həlak olub, üç nəfər yaralanıb. Müdafiə Nazirliyinin məlumatında bildirilib: Dərin kədər hissi ilə qeyd edirik ki, sentyabrın 28-də saat 19 radələrində Tərtər rayonunun Şıxarx qəsəbəsində yerləşən əlillər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində Tərtər rayon sakinləri 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu və onun qardaşı 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu həlak olub, 1984-cü il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu, 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər. Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində döyüş şəraiti nəzərə alınmaqla mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

– Baş Prokurorluq düşmənin Tərtərdə əlillər və məcburi köçkünlər üçün tikilmiş binanı atəşə tutması nəticəsində iki nəfərin həlak olması və iki nəfərin yaralanması barədə məlumat yayıb.

– Azərbaycan Ordusunun apardığı döyüşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilib. Müdafiə Nazirliyi daha 2 düşmən tankının məhv edilməsinin görüntülərini yaydı.

– Ermənistan tərəfindən Azərbaycan ordusunun itkisi ilə bağlı yayılan məlumatlar tamamilə yalandır. Bunu Müdafiə Nazirliyinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov açıqlamasında deyib. O qeyd edib ki, bu saxta məlumatların məqsədi ölkə daxilində yaranan xaosu azaltmaqdır. A.Eyvazov bildirib ki, kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu ciddi itkilərə məruz qalıb. Onun sözlərinə görə, düşmənin 24 ədəd tankı və zirehli texnikası, 15 ədəd zenit raket kompleksi, 15 uçuş aparatı, 8 ədəd artilleriya qurğusu, 550 nəfərdən artıq şəxsi məhv edilib. A.Eyvazov qeyd edib ki, düşmən itkilərinin arasında aşkar edilmiş bəzi meyitlərin Suriyadan və Yaxın Şərqdən gətirilmiş muzdluların olduğu aşkar edilib.

– Yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilib. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, artilleriyaçılarımızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilib. Həmin artilleriya bölmələri Ermənistan ordusunun 5-ci dağatıcı alayının tərkibindədir.

– Azərbaycan Ordusu bölmələrinin dəqiq zərbələri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə məxsus daha bir neçə hərbi texnika məhv edilib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin məlumatında təqdim olunan videoda düşmənə məxsus hərbi texnikaların məhv edilmə anları əks olunub.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda ordumuzun apardığı əks-hücum əməliyyatları davam edir.

***Mustafa KAMAL***
***XQ***

# Vətən müharibəsi qəhrəmanları

## Qubadlının zəfər qəhrəmanı

**Qubadlı rayonunun Xanlıq kəndində anadan olmuş Vüqar Əhməd oğlu**



**Ağayev hələ kiçik yaşlarından hərb işinə maraq göstərib, özünü baxdığı “davalı kino”ların qəhrəmanlarına bənzətməyə çalışıb. Əsgərlik yaşı çatanda sevinə-sevinə Milli Ordu sıralarında xidmətə yollanıb və bu zaman ömürlük Vətən keşiyində durmağı qərara alıb.**

Həqiqi hərbi xidmətdən tərxis olunan Vüqar 1992-ci ildə ali hərbi məktəbin kursantı kimi oxumağa başlayıb və təhsilini uğurla başa vuraraq leytenant rütbəsi alıb. Qusar rayonundakı hərbi hissədə təlim keçib, ardınca Naxçıvan qarnizonunda bölük komandiri kimi hərbi xidmətə başlayıb. 2016-cı ildə hərbi xidmətini başa vuraraq, təqaüdə çıxıb.

Vətən müharibəsi başlananda ehtiyatda olan mayor Vüqar Ağayev könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qubadlı Rayon Bölməsinə müraciət edərək, döyüşlərə atılıb. Bu barədə söz düşəndə hərbçi dostlarına deyib ki, gənclik illərindən yaxın dostu və sirdaşı olan Milli Qəhrəman Polad Həşimovun həmin il iyulun 14-də Tovuz rayonu ərazisində şəhadətə ucalması xəbərini eşidəndən özünə yer tapa bilməyib. Elə bu üzdən də qisas hissi ilə yenidən hərbi libasını geyinərək silaha sarılıb. Quru Qoşunlarının tərkibində igidlik nümunəsi göstərən mayor Ağayev təcrübəsini gənc zabitlərdən əsirgəməyib.

Vüqar Ağayev 44 günlük müharibənin 33-cü günündə – noyabr ayının 1-də doğma Qubadlı rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Onun nəşi Bakıdaya gətirilərək, II Fəxri xiyabanda ruhuna böyük ehtiramla torpağa tapşırılıb. Dövlət başçısının 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə mayor Vüqar Əhməd oğlu Ağayevə ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. Şəhid zabit, həmçinin “Vətən uğrunda” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib. Ramana qəsəbəsində yerləşən Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbi Vətən Müharibəsi Qəhrəmanı şəhid Vüqar Ağayevin adını daşıyır.

## Savaş şahini



**Vətən Müharibəsi Qəhrəmanı, HHQ-nin polkovniki Zaur İsmayıl oğlu Nudirəliyevin uşaqlığı Bakının Zabrat qəsəbəsində keçib. Erkən yaşlarından yaşadığı ünvana yaxın olan Zabrat hava limanından qalxıb-enən təyyarələri görüb, onların səsi ilə yatıb-durub və arzu edib ki, təyyarəçi olsun, hava gəmisi ilə əngin səmalara baş vursun.**

Onun həyat yolu belə də müəyyənləşib. 1995-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən sonra Türkiyə Ali Hərbi Hava Qüvvələri Məktəbinə daxil olub və orada “Təyyarəçi” ixtisasına yiyələnib. 2011-2013-cü illərdə isə Almaniyada General–Admirallar üçün Hərbi Liseydə təhsil alıb.

Kürdəmir aviabazasının təyyarəçi, daha sonra eskadrilya komandiri olan Zaur Nudirəliyev daim ona qanad verən uçuşlar zamanı qartal vüqarı ilə aşağılara baxar, çox güman ki, nə vaxtsa işğal altında olan Qarabağın səmasında cövlan etmək istəyərdi. Nəhayət, 2020-ci ilin sentyabrında bu arzusu da çin olub. Ali Baş Komandanımız sentyabrın 27-də erməni işğalçılarının növbəti silahlı təxribatının qarşısını almaq barədə əmr verəndə, bəlkə də, hamıdan çox o sevinib.

“Zəfər Yürüşü” zamanı “Su-25” hücum təyyarələrində yeni üsullardan istifadə ilə bağlı məsul tapşırıqları can-başla yerinə yetirib. Özü də bombaların nişangahsız - riyazi hesablamalarla atılmasının yeni üsulunu tətbiq edib, həmçinin təyyarəsindən lazer güdümlü bombaların birinci atışını reallaşdırıb. Cəbrayıl, Füzuli və Ağdərə istiqamətlərində onun və digər şahinlərimizin endirdikləri zərbələr nəticəsində erməni işğalçılarının dayaq məntəqələri, canlı qüvvələri, cəmləşmə yerləri dağıdılıb, nəticədə Azərbaycan Ordusunun qurudan ciddi üstünlüyə sahib olması təmin olunub. 7 gün ərzində aktivinə 12 uğurlu uçuş yazan Zaur Nudirəliyev oktyabrın 4-də Cəbrayıl rayonu istiqamətində özünün “nəhs” deyilən 13-cü uçuşunu reallaşdırıb. Həmin gün təyin olunmuş hədəfə zərbə endirərək geri qayıdan zaman təyyarəsi vurulan cəsur pilotun ölməz ruhu həmişəlik olaraq göyləri məskən seçib.

Silahdaşlarının dediyinə görə, həmin vaxt ağır yaralanmış olsa da, Zaur Nudirəliyev təyyarədən katapult edə bilərdi. Amma o, əsir düşməsin deyə, təyyarəsini düşmənin canlı qüvvəsinin cəmləşdiyi səngərdəki zirehli tanka çırparaq həlak olub. Beləliklə, USTA dərəcəli pilot Zaur Nudirəliyev Azərbaycan Hərbi Hava Qüvvələri tarixində şəhid olan yeganə polkovnik kimi tarix yazıb. Hələ uşaq vaxtı yaşadığı Zabratdan başlayan səma sevgisi onun havada əsl rəşadət nümunəsi ilə əbədiləşib.

Şahinlik etdiyi 20 il ərzində bir sıra döyüş üsullarını kəşf edərək ərsəyə gətirmiş və uğurlu sınaqlardan sonra döyüşlərdə icra etmiş Zaur Nudirəliyev “Zəfər Yürüşü” zamanı misilsiz şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adına və bir sıra medallara layiq görülüb. Bakıdakı 47 nömrəli tam orta məktəbin və mərkəzi küçələrin biri onun adını daşıyır.

## Lələtəpədən başlanan qəhrəmanlıq yolu



**Sərhəd qoşunlarının kiçik giziri Amin Taciddin oğlu Novruzov Balakən rayonunda doğulub böyümüş, orta məktəbi bitirdikdən sonra həyatını hərbi işə həsr etmişdi. Həqiqi hərbi xidmət dövründə məlum Aprel döyüşləri sınağından mətanətlə çıxmış, Lələtəpədə ilk qələbə sevincini dadmışdı. Bundan 1 il sonra Dövlət Sərhəd Xidmətində 5 aylıq hazırlıq kursu keçərək, müddətdən artıq qulluğa qəbul olunmuşdu.**

Çevik Hərəkət Qüvvələrində tuşlayıcı-operator olan Amin xidmət etdiyi müddətdə intizamı, tapşırıqları dəqiq və vaxtında yerinə yetirməsi, keçirilən taktiki təlimlərdə yüksək nəticələrə nail olması ilə daim fərqlənirdi. Xalqımızın “Qarabağda böyük Qələbəmizi görək!” diləyinə “Amin!” deyən qəhrəmanımızın qismətində “Zəfər Yürüşü”nə qoşulmaq da varmış. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ savaşı zamanı Amin Novruzov böyük ruh yüksəkliyi ilə döyüşlərə atıldı. Füzuli və Zəngilanın mənfur düşməndən təmizlənməsi əməliyyatlarında iştirak etdi. Cəbrayıl-Zəngilan istiqamətində İran İslam Respublikası ilə dövlət sərhədinin azad edilməsində, Zəngilan tərəfdə Ermənistanla sərhəddə yerləşən strateji əhəmiyyətli yüksəkliklərin alınmasında məxsusi şücaət göstərdi.

Amin noyabrın 1-də adsız, amma mühüm əhəmiyyətli bir yüksəkliyin azad edilməsi tapşırığını yerinə yetirərkən yenə də öndə gedirdi. Həmin gün düşmənin əks-hücumunun qarşısını alarkən boğazından ağır güllə yarası aldı. Son nəfəsində dedi: “Düşünməyin ki, mən ölümdən qorxuram, əgər sağ qalsam, yenidən bu vətən üçün döyüşməyə gələcəyəm, yox, əgər şəhid olsam - “Vətən sağ olsun!”. Təəssüf ki, ertəsi gün o, gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəldi.

Balakənin Şəhidlər xiyabanında torpağa tapşırılan Amin Novruzovla vida mərasimində döyüş dostları da iştirak edirdilər. Onlar igid silahdaşlarının hünərindən, çətin məqamlarda vəziyyətdən ən düzgün çıxış yolu tapmasından ürəkdolusu danışdılar, ölümün gözünə dik baxdığını söylədilər. Valideynləri, müəllimləri, qonum-qonşusu Amin kimi bir oğulla fəxr etdiklərini bildirdilər...

Döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidlik və mərdlik nümayiş etdirdiyinə görə Amin Novruzova “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. O, həmçinin “Vətən uğrunda”, Zəngilanın və Cəbrayılın azad olunmasına görə” medallarına layiq görülüb.

...Artıq 4 ildir ki, doğma rayonu Balakəndə bir vaxtlar oxuduğu Humanitar və Texniki Təmayüllü Lisey qəhrəman Amin Novruzovun adını daşıyır. Liseyin qarşısında əzəmətli büstü qoyulub. Hər gün liseyə gələn müəllimlər və şagirdlər onun qarşısında bir anlıq ayaq saxlayır, ruhuna dualar oxuyurlar.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Vətən müharibəsinin ilk şəhidləri

## Qarabağın səma qartalları

**Haqqında söhbət açacağımız igid qəhrəmanlarımız 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk şəhidlərindəndir. Onları siz də tanıyın: Abbas Rza oğlu Qasımov və Xalid Həsən oğlu Gözəlov. Dünyaya göz açdıqları yurd yerləri fərqli olsa da Vətənin azadlığı, suverenliyi, bütövlüyü üçün canlarından birgə keçiblər. İki can yoldaşı, iki silahdaş. Elə çox vaxt mavi səmalarda birgə uçarmışlar.**





Abbas Qasımov 1988-ci ilin noyabr ayında ailəsi ilə birgə Qərbi Azərbaycandan ermənilər tərəfindən doğma yurdlarından deportasiya ediləndən sonra Bakının Binəqədi rayonunda məskunlaşıblar. 6 yaşında ikən atasını itirsə də, balaca Abbas çətin günlərə sinə gərərək, yaşıdlarından geri qalmayıb. 1993–2003-cü illərdə rayondakı F.İsgəndərov adına 157 nömrəli tam orta məktəbdə oxuyub. 2003–2007-ci illərdə isə MTN-nin Heydər Əliyev adına Akademiyasında ali təhsil alıb. 2007-ci ildə bu ali təhsil müəssisəsini bitirən Abbas sərhədlərin mühafizəsi bölüyünə göndərilib və bir neçə rayonda sərhəddə xidmət edib. Xidməti dövründə daim fərqlənib, medal və təltiflərlə mükafatlandırılıb. Hər zaman pilot olmağı arzulayan Abbasa yeni bir yol açılıb. Milli Aviasiya Akademiyasına daxil olub. 2017-ci ildə mayor rütbəsi alıb.

Həmişə Zəngəzur həsrətini dilə gətirərək söyləyərmiş ki, əgər bir millət silah gücünə yurd-yuvasından didərgin salınıbsa, deməli, ora onun əsl torpağı, Vətənidir. O millət o torpağı, o Vətəni heç vaxt unutmur, o yurda qayıtmaq istəyi ilə qovrulur, inamını itirmir. Abbas da doğma od-ocağına qovuşmaq üçün ümidlə yaşayır.

Vətən müharibəsi başlayanda Abbas və Xalid birlikdə uçacaqlarına qərar veriblər. Birlikdə uçub, birlikdə də şəhid olurlar. Mayor Abbas Qasımov II Şəhidlər xiyabanında dəfn edilir.

Şəhidin həyat yoldaşı Siddiqə xanım o günləri belə xatırlayır: “Abbas sentyabrın 25-i axşam evə gəldi. Uşaqlarını qucaqlayıb bağrına basdı. Səhəri gün isə tezdən yola düşdü. Mənə axşam müharibəyə getməyi barədə bildirməməyi tapşırdı. Uşaqlarına çox bağlı insan idi. İstəyirdi ki, oğlanları savadlı olsun. Hətta onlara saymağı da birinci dəfə ataları öyrətmişdi. Deyirdi, hansı peşəni seçmələrindən asılı olmayaraq, qoy öz işlərinin peşəkarı olsunlar. Oğlumuz Rzanı ilk dərs günü məktəbə özü aparmaq istəyirdi. Ancaq işi ilə əlaqədar icazə alıb gələ bilmədi. Ona oğlumun məktəbli formasında şəkillərini çəkib göndərdim. Çox sevindi, dedi, evə qayıdan kimi özü onu dərsə aparacaq.

Kiçik oğlum onun yoxluğunu qəbul edə bilmir. Onları başa salıram ki, ata qəhrəmandır. Abbas və döyüş yoldaşı Xalidin şəhid olması ilə ordumuz düşmənin mövqelərini aşkarlayaraq məhv edib. Onlar şəhadətləri ilə həm də Silahlı Qüvvələrimizə yol açıblar. Bu cür qəhrəmanların adının yaşaması şəhid ailələri üçün təskinlikdir”.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Abbas Qasımov ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Qubadlının azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif edilib. Binəqədi rayonu 6-cı mikrorayonda küçələrin birinə şəhidin adı verilib.

Digər şəhidimiz Xalid Gözəlov da torpaqlarımızın azad olunması uğrunda canından keçib. Biləsuvarda dünyaya göz açan şəhidimiz ailənin üç oğul payından ortancılı idi. O, 2002-ci ildə Zaqatalada 2 saylı orta məktəbin 1-ci sinfinə gedib. Atasının işi ilə əlaqədar daha sonra təhsilini Biləsuvarda davam etdirib. 2012-ci ildə Oktay Babayev adına orta məktəbin məzunu olub. Ödənişsiz əsaslarla Texniki Universitetə daxil olsa da, orada oxumayıb. Hərbi sahəyə daha çox maraq göstərdiyindən sənədlərini yenidən Dövlət Sərhəd Xidməti Akademiyasına verərək, istəyinə çatıb.

Xalid 2017-ci ilin iyun ayında leytenant rütbəsi alır. Təyinatı üzrə Dövlət Sərhəd Xidmətinin “N” saylı hərbi hissəsində hərbi pilot qismində əmək fəaliyyətinə başlayır. Xidməti dövründə peşəkar, savadlı, bilik və bacarığını daim təkmilləşdirən, ünsiyyətcil, hərbi kollektivdə sayılıb-seçilən zabitlərdən olur. Hər bir Azərbaycan vətəndaşı kimi, Xalidin də ən böyük arzusu torpaqlarımızın düşmən işğalından azad edilməsi idi. Bu arzu bir an da olsun onu rahat buraxmırdı.

1990-cı illərin əvvəllərindən mənfur qonşumuz olan ermənilərin və onların separatçı dəstələrinin Azərbaycan torpaqlarını işğal etməsində, onlara havadarlıq edən xarici qurumların otuz ilə yaxın apardıqları gərəksiz danışıqları torpaqların azad olunması məsələsini ləngidirdi. Xalid çox yaxşı bilirdi ki, əgər Ali Baş Komandan İlham Əliyev hücum əmrini verərsə, ordumuz mütləq zəfər çalacaq. Çünki ədalət gec də olsa həmişə haqqın yanında olur.

Xalid uşaqlıqdan idmanın güləş növü ilə məşğul idi. Saysız-hesabsız mükafatlar, medallar qazanmışdı. Çempion da olmuşdu. Həyatda arzuları böyük idi. Xalid evlənib ailə həyatı qurmaq istəyirdi. Atanın-ananın da arzusu oğlunun toyunu görmək idi, lakin onun şəhid olması bu arzuları yarımçıq qoydu. II Fəxri xiyabanda Polad Həşimovla eyni sırada dəfn olundu.

Prezident İlham Əliyevin sərəncamları ilə baş leytenant, hərbi pilot Xalid Gözəlov ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Qubadlının azad olunmasına görə”, “Vətən uğrunda” medalları ilə təltif edilib.

...Bu gün hər birimiz üçün şəhid məzarları and yerinə çevrilib. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq isə ən böyük şərəf və qürurdur.

## Murovdağ zirvəsində şəhadət

**Vətən müharibəsi şəhidi Adəm İlqar oğlu Əliyev 2000-ci il noyabrın 19-da Ağdam rayonunun Üçoğlan kəndində anadan olub. 2002-ci ildə ailə Kürdəmirə köçüb. Məktəbi bitirdikdən sonra Adəm Bakıda əczaçılıq kursuna yazılıb. 2019-cu ildə bu təhsil müəssisəsini bitirib və hərbi xidmətə yollanıb. 3 ay Gəncədə, aprel ayında isə Daşkəsəndə “N” saylı hərbi hissədə ön cəhbədə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi fəaliyyətə başlayıb. O, Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərə qatılıb.**

20 yaşlı oğlunun qəhrəmanlıqlarından, mərdliyindən və şücaətindən anası Akifə Ağayeva söhbət açır: İki oğlumu təkbaşına böyütmüşəm. Adəm çox güclü, fədakar və istiqanlı uşaq olub. İki qardaş ağılları kəsəndən əzab-əziyyət görüblər. Adəm 15 yaşından səhər məktəbə gedirdi, günortadan sonra işləyib pul qazanırdı ki, mənə kömək olsun. Kənd həyatını çox sevirdi. “Mən baytar olacağam”, deyirdi, etiraz etmirdim, gülürdüm...”.

Qəhrəmanın anası qeyd edir ki, Aprel döyüşlərində həmyerlisi, Azərbaycan Hərbi Hava Qüvvələrinin baş leytenantı Əbubəkr İsmayılovun şəhid olması Adəmi çox sarsıtmışdı. Əbubəkrə şeir ithaf etmişdi. Oğlumun ürəyindəki belə bir güclü Vətən sevgisi məni təəccübləndirmişdi. Şəhid olandan sonra gündəliyini tapdım, məzuniyyətə gələndə nədənsə evdə qoymuşdu. Oradakı fikirlər bunu bir daha sübut edirdi.

Adəmin başqa bir dostu 2018-ci ildə şəhid olmuşdu. Daşkəsənə xidmətə gedəndən sonra zəng vurub dedi ki, ana, bilirsən hara gəlmişəm, Fuadın şəhid olduğu yerə... Çox ağladım, dedi ki, narahat olma, buranın yolunu düzəldiblər. Fuad uçquna düşmüşdü. 3 gün sonra tapmışdılar. Gündəliyində Fuada müraciətlə yazmışdı ki, sağ olsaydın indi bir yerdə xidmət edirdik. Nə bilmək olar, bəlkə mən də sənin kimi şəhidlik zirvəsinə ucaldım. İndi məzarları düz Fuadla yanaşıdır. Adəm heç vaxt xidmətdəki çətinlikdən danışmayıb. Yanına gəlməyə də qoymazdı.



Gündəliyini oxuyandan sonra bilmişəm ki, balam odun-alovun içində olub. Buna baxmayaraq, təyinatı gələndə sevindiyindən qanad açıb uçurdu. Əslində o müharibənin olacağını bilirdi. Zəng edəndə deyirdi ki, sən özündən muğayat ol, mən də yaxşı olum...

Akifə ana oğlu ilə son dəfə sentyabrın 25-i danışıb: “Sentyabrın 26-sı yazdı ki, ana, yuxarı qalxırıq, imkan olanda yığacağam”, sonra telefonu söndürüb. Sentyabrın 27-si müharibə başladı. Cəbhəyə gedən gündən güclü təlimlər keçirdilər. Oğlum müharibənin ilk səhifələrinə qanı ilə tarix yazdı. Sentyabrın 27-si silahdaşları ilə birlikdə Kəlbəcər istiqamətində döyüşə yollanıb. Çox şiddətli döyüşlər nəticəsində 5-6 post almağa müvəffəq olublar. 28-i isə axşam oğlumun şəhid xəbəri gəldi. Həmin gün ürəyimə daş asılmışdı, oğlum Arif elə hey sakitləşdirməyə çalışsa da, özümə gələ bilmirdim...

Prezident İlham Əliyevin sərəncamları ilə Murovdağ döyüşləri zamanı şəhadətə yüksələn Adəm ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

***Müşfiq MİRZƏ***
***XQ***

# Zəfər yürüşümüz ingilis dilində




**Bu günlərdə Milli Müdafiə Universitetinin Hərbi Elmi–Tədqiqat İnstitutunun professoru, ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru Nurulla Əliyevin “44 günlük Vətən müharibəsi” kitabı ingilis dilində işıq üzü görüb. Yeni nəşr Azərbaycanda Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümlərinə həsr olunub.**

Kitabda Ermənistan–Azərbaycan münaqişəsinin gərginləşməsi prosesindən tarixi-xronoloji ardıcıllıqla bəhs edilib. Birinci və İkinci Qarabağ müharibəsinin əsas səbəbləri, Cənubi Qafqazın taleyi üçün geosiyasi nəticələri göstərilib.

Tədqiqatda informasiya mənbələrinə, hərbi ekspertlərin, hərbi və beynəlxalq humanitar hüquq sahəsində ixtisaslaşan alimlərin təhlilləri əsasında 2020-ci ildə baş vermiş 44 günlük müharibənin məzmununu müəyyənləşdirən əsas hərbi və siyasi komponentlərə qiymət verilib. Nəşrdə Zəfər yürüşündə hərbi-siyasi hadisələrin və döyüş əməliyyatlarının xüsusiyyətləri də əks olunub, şanlı Qələbəmizi təmin edən Azərbaycan Silahlı Qüvvələrinin hərbi-strateji məharəti və tətbiq edilən taktikanın mərhələləri göstərilib.

Kitab Milli Müdafiə Universitetinin müəllim və dinləyiciləri, hərbi nəzəriyyəçi və praktiklər, beynəlxalq münasibətlər, humanitar və hərbi hüquq sahəsində ixtisaslaşan yerli və xarici mütəxəssislər üçün nəzərdə tutulub. Monoqrafiya Azərbaycanın hərb tarixi, Ermənistan–Azərbaycan münaqişəsinin gedişi və konkret məzmunu ilə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbədir.

***Ə.ƏLİYEV***
***XQ***

# Xalqımızı dünyada şərəfləndirmiş gün

**Beş il bundan əvvəl Zəfəri şəhidlərimizin qanı bahasına qazandıq. 44 günlük işğaldan qurtuluş savaşında minlərlə igid oğul şəhidlik zirvəsinə ucaldı, bir o qədəri də qazi oldu. Amma onların hər biri canlarından çox sevdikləri Azərbaycan naminə ölməzlik və əbədi xatirə qazandı. Xalqımız şəhidlərin xatirəsini əziz tutur, onların ruhuna ehtiram göstərir. Bu gün Azərbaycanın hər bir guşəsində, eləcə də diplomatik nümayəndəliklərimizin fəaliyyət göstərdiyi, soydaşlarımızın yaşadığı xarici ölkələrdə Anım Günü qürurla qeyd olunur. Bu tarix, eyni zamanda, xalqın milli kimliyinin, Vətən sevgisinin ali ifadəsini özündə yaşadır. Azərbaycanda və dünyanın dörd tərəfində həm də Xalq–Ordu–Lider vəhdətinin rəmzi kimi dalğalanan üçrəngli bayrağımız azad və firavan gələcəyi müjdələyir.**






### Türkiyə

“Qarabağ sonsuza qədər Azərbaycandır!”. Bu sözlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 27 Sentyabr – Anım Günü ilə bağlı "X" hesabındakı paylaşımında yer alır. Paylaşımda daha sonra deyilir: “Dostumuz, qardaşımız, sevimli Azərbaycanımızın Anım Günündə Qarabağı və işğal olunmuş Azərbaycan torpaqlarını böyük qəhrəmanlıqla azad edən şəhidlərimizi rəhmətlə yad edir, veteranlarımıza ehtiramımı bildirirəm.



### Səudiyyə Ərəbistanı

“27 Sentyabr təkcə Anım Günü deyil, həm də Qarabağın ermənilər tərəfindən işğalına son qoyulduğu, Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi və Cənubi Qafqaz tarixində sülh və sabitliyə doğru yeni səhifənin açıldığı tarixdir”. Bu barədə Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev Bəhreynin "The Daily Tribune" nəşrində dərc olunmuş məqaləsində yazıb. Məqalədə Vətən müharibəsindən keçən beş il ərzində Azərbaycanın Qarabağ bölgəsini dirçəltməsi, orada həyatın canlanması, keçmiş məcburi köçkünlərin qayıdışını təmin etməsi, həmçinin bölgədə sülh və tərəqqini bərqərar etmək istiqamətində atdığı addımlardan bəhs edilir.

### Gürcüstan

Gürcüstanın Marneuli şəhərində “Zəfərə gedən yol” adlı Anım Günü tədbiri keçirilib. Tədbir eyniadlı tamaşanın təqdimatı ilə başlayıb və Azərbaycanın azadlığı və suverenliyi uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasimdə Marneuli meriyasının nümayəndələri, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstan parlamentinin deputatı Zaur Dərğallı, din xadimi Əziz Quliyev, keçmiş parlament üzvü Azər Süleymanov, Gürcüstan müsəlmanları idarəsinin müftisi Etibar Eminov, idman ictimaiyyətinin nümayəndələri, aşıq sənətinin tanınmış simaları və icma üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən səfir Faiq Quliyev bildirib ki, Anım Gününün təsis olunması Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsinə Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin göstərdiyi ali ehtiramın təsdiqidir. O, həmçinin vurğulayıb ki, Anım Günü gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması və ölkə vətəndaşlarının birliyinin möhkəmlənməsi baxımından böyük əhəmiyyət daşıyır.

### Mərakeş

Azərbaycanın Mərakeş Krallığındakı səfirliyinin Mərakeş Milli Kitabxanası və Mərakeş-Azərbaycan Dostluq Cəmiyyəti ilə birgə Anım Gününün 5-ci ildönümü ilə bağlı dəyirmi masa təşkil edilib. Tədbiri açan Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov 44 günlük Vətən müharibəsi haqqında danışıb, ölkəmizin beynəlxalq səviyyədə tanınmış bütün torpaqları üzərində suverenliyini tam bərpa etməsinin müasir Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olduğunu bildirib. Səfir 27 Sentyabr – Anım Günündə vətənimizin müdafiəsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçmiş şəhidlərimizin əziz



xatirəsinin anılmasının hər bir azərbaycanlı üçün müqəddəs borc olduğunu bildirib.

Daha sonra çıxış edənlər – Mərakeş–Azərbaycan Dostluq Cəmiyyətinin sədri Muhamməd Fakiri, İslam dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Tərəfdaşlıqlar və Beynəlxalq Əməkdaşlıq Departamentinin rəhbəri Anar Kərimov, Türkiyənin Mərakeşdəki səfiri Mustafa İlker Kılıç, Mərakeşin ölkəmizdə səfiri olmuş Həsən Hami Azərbaycanın regional siyasəti, çoxvektorlu diplomatiyasından danışmış, bölgədə sülhün bərqərar olmasının iqtisadi inteqrasiya və əməkdaşlığa müsbət töhfə verəcəyinə inandığını ifadə ediblər.

### Niderland

Azərbaycanın Niderlanddakı səfirliyi 27 Sentyabr - Anım Günü ilə əlaqədar bədii-musiqili xatirə gecəsi keçirib. Tədbirdə diplomatik korpusun, Niderland ictimaiyyətinin, bu ölkədəki Azərbaycan və türk icmalarının nümayəndələri iştirak ediblər.

Azərbaycanın Niderlanddakı səfiri Məmməd Əhmədzadə çıxışında Anım Gününün xalqımızın müasir tarixindəki xüsusi yerindən bəhs edib. Diplomat bildirib ki, bu əlamətdar gün Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin əbədiyaşar xatirəsinə ehtiramın, xalqımızın qəhrəmanlıq irsinə sədaqətinin parlaq təcəssümüdür. O, Ermənistanın 30 illik hərbi təcavüzünün ağır nəticələri barədə danışan diplomat Azərbaycanın bu işğal ilə heç vaxt barışmadığını və Prezident İlham Əliyevin rəhbərliyi ilə qələbəni yaxınlaşdırmaq üçün bütün siyasi, diplomatik, iqtisadi və hərbi imkanların səfərbər edildiyini deyib. Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi Elsevər Məmmədov çıxışında Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin qəhrəmanlığının yaddaşlarda əbədi yaşayacağını bildirib.

### Tailand

Azərbaycanın Tailanddakı səfirliyi bu ölkənin nüfuzlu ali təhsil ocaqlarından olan Thammasat Universitetində 27 Sentyabr – Anım Günü ilə bağlı tədbir keçirib.

Səfirliyin yaydığı məlumatda deyilir ki, tədbirdə Tailandda yaşayan Azərbaycan diasporunun təmsilçiləri, Banqkok şəhərində yerləşən beynəlxalq təşkilatlarda çalışan həmvətənlərimiz, Thammasat Universitetinin nümayəndələri və səfirliyin əməkdaşları iştirak ediblər. Tədbir çərçivəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş igidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, İkinci Dünya müharibəsi zamanı xarici işğalçılara qarşı mübarizə aparmış Azad Tai Hərəkatı iştirakçılarının şərəfinə ucaldılmış abidənin önünə əklil qoyulub.

Azərbaycanın Tailanddakı səfiri Elçin Bəşirov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatının qarşısının alınması məqsədilə Azərbaycanın özünümüdafiə hüququ çərçivəsində cavab tədbirləri həyata keçirdiyini və bununla da 44 günlük Vətən müharibəsinin başladığını bildirib. Səfir Ali Baş Komandan,



Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun rəşadəti və şücaəti sayəsində qələbə qazanaraq, 30 illik işğala son qoyduğunu xüsusi vurğulayıb.

### Peru

Peru Konqresi Anım Günü ilə bağlı bəyanat verib. Konqeresin sədri Xose Xeri Orenin təşəbbüsü ilə qəbul edilmiş sənəddə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi ehtiramla yad olunur, Azərbaycan xalqına başsağlığı və həmrəylik ifadə edilir. Bəyanatda, həmçinin Qafqaz regionunda sülhün və sabitliyin möhkəmləndirilməsinə yönəlmiş beynəlxalq səylərə, o cümlədən bu il avqustun 8-də Ağ Evdə keçirilmiş və tarixi qərarların qəbul olunduğu yüksək səviyyəli görüşə dəstək vurğulanıb.

### Moldova

Azərbaycanın Moldovadakı səfirliyində 27 Sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirilib. Bu barədə Kişineudakı diplomatik nümayəndəliyimizin "X" hesabında paylaşım yerləşdirilib. Səfirlikdə qeyd ediblər ki, anım tədbirinin iştirakçıları Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Bundan başqa, onlar Azərbaycanın ümummilli lideri Heydər Əliyevin büstü və Hərbi Memorialın önünə gül dəstələri düzüblər.

*Hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# Şəhid arxeoloq yad edilib



**AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunda 27 Sentyabr – Anım Günü ilə əlaqədar olaraq Vətən müharibəsində şəhid olmuş arxeoloq Elşən Salayevin xatirəsinə həsr olunmuş mərasim keçirilib.**

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AMEA Arxeologiya və Antropologiya İnstitutun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev çıxış edərək 44 günlük Vətən müharibəsinin Azərbaycanın tarixində önəmli bir hadisə olmasından, dünya çapında dövlətimizin və xalqımızın iradəsini və nüfuzunu təsbit etməsindən danışıb. “Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun azad etdiyi torpaqlarımızda institut əməkdaşlarının apardığı tədqiqatlar şəhidlərimizin ruhu qarşısında yerinə yetirdiyimiz vəzifə borcumuz və onların xatirəsinə bir ithafdır”, – deyə institut direktoru çıxışında vurğulayıb.

Daha sonra institutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Mircavid Ağalarov şəhid Elşən Salayevin həyatı və elmi fəaliyyəti barədə tədbir iştirakçıları məlumat verib. O, şəhid Elşən Salayevin elmə marağını, gələcək üçün planlarını və vətənpərvərliyini xüsusi vurğulayaraq onun ölümündən sonra “Suqovuşanın azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edildiyini bildirib. “Qədim Bərdədəki Torpaqqala abidəsində aparılan arxeoloji qazıntılarda Elşən elə böyük hörmət qazanmışdı ki, hətta şəhid olduqdan sonra arxeoloji araşdırmada iştirak edən İrlandiyanın Dublin Universitetinin əməkdaşı David Stone İngiltərədə Oksford Universitetində müdafiə etdiyi dissertasiyasını onu xatirəsinə həsr etmişdi”, – deyə Mircavid Ağalarov bildirib.

Bakı Dövlət Universitetinin Tarix fakültəsinin professoru Lalə Əliyeva şəhid Elşən Salayevi zəhmətkeş, perspektivli tələbə kimi xatırladığını deyib və onun Vətənə sarsılmaz bağlılığından danışıb. Professor qeyd edib ki, ingilis dilini sərbəst bilən Elşənin arzusu arxeologiya üzrə təhsilini Avropa elmi mərkəzlərinin birində davam etdirib, Azərbaycanda arxeoloji tədqiqatlarda iştirak etmək idi.

Tədbir iştirakçıları yekdilliklə yaxın gələcəkdə şəhid Elşən Salayevin xatirəsini yaşadacaq gənc arxeoloqlar üçün mükafatın təsis edilməsi təşəbbüsünü dəstəkləyiblər.

Seminarın sonunda şəhid arxeoloqun xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# İstanbulda Azərbaycan kinosu təqdimatı

**İstanbul Universitetinin Türk Araşdırmaları İnstitutunda Türk Dünyası Kino Forumu və mükafatlı sənədli film nümayişi keçirilib. Azərbaycanlı ssenarist, teatr və kino tənqidçisi, İstanbul Universitetinin doktorantı Ameliya Ömərova məclisdə “Azərbaycan kinosunda tarixi və mədəni izlər” mövzusunda təqdimatla çıxış edib.**

Məruzədə “Fətəli xan” filmi təhlil olunub, sovet dövründə Azərbaycan kinosunun üzləşdiyi çətinliklərdən, ekran əsərlərində qorunub saxlanılan tariximizdən, milli-mədəni irsimizdən bəhs edilib.

Bu il 10-cu dəfə keçirilən forumu Türk Dünyası Jurnalistlər Federasiyası Daxili İşlər Nazirliyinin Vətəndaş Cəmiyyəti ilə Əlaqələr Baş İdarəsinin dəstəyi ilə təşkil edib. Azərbaycan, Şimali Kipr Türk Cümhuriyyəti, İran, Bolqarıstan, Qazaxıstan və Qırğızıstan da daxil olmaqla 10 ölkədən film istehsalçılarının qatıldığı forum Türk dünyasında kino sahəsində əlaqələrin daha da genişləndirilməsi məqsədi daşıyır.

Forumda Türk Dünyası Jurnalistlər Federasiyasının Prezidenti Menderes Demir, İstanbul Universiteti Türk Araşdırmaları İnstitutunun müdir müavini Mehmet Sait Türkhan və Milliyyətçi Hərəkat Partiyasının İstanbul Təşkilatının təmsilçisi İs-




mail Akgöz Türk dünyası kinosunun inkişaf yollarından və uğurlarından söz açıblar.

Forum çərçivəsində təşkil olunan panellərdə kinematoqrafiyanın müxtəlif mövzuları, hədəfləri müzakirə olunub. Məclis “Keçmişdən günümüzə” filmi, eləcə də “Vira” və “Novruz” sənədli filmlərinin təqdimatı ilə davam etdirilib.

***XQ***

*Həssaslıq meridianı*

# Bu gün onların günüdür

## *Həssas qrupun təmsilçiləri gündəlik qayğıya möhtacdırlar*

**Hər il sentyabrın son bazar günü Beynəlxalq Lal-Karlar Günü kimi qeyd edilir. Bu günün keçirilməsində məqsəd nitq və eşitmə qabiliyyəti məhdud olanların üzləşdikləri gündəlik problemlərlə bağlı cəmiyyətin məlumatlandırılmasıdır.**

Bu əlamətdar günün qeyd edilməsi hər il sentyabrın 23-də keçirilən Beynəlxalq Jest Dilləri Günü (International Day of Sign Languages) ilə əlaqəlidir. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2017-ci ilin dekabrında təsis etdiyi bu əlamətdar gün diqqəti nitq və eşitmə imkanları məhdud insanların həyatına yönəltmək, onların problemlərinin həllinə dəstək olmaq, eyni zamanda, həssas təbəqənin cəmiyyət üçün əhəmiyyətini vurğulamaq üçün keçirilir. 72/161 nömrəli qətnamənin təşəbbüskarı isə 1951-ci ildə yaradılmış Ümumdünya Lal-Karlar Federasiyası olub.

Təşkilatın məlumatına görə, dünyada 70 milyondan yuxarı eşitmə qabiliyyətini itirmiş insan yaşayır ki, onların əsas ünsiyyət vasitəsi məhz jestlərdir. Dünya ictimaiyyəti jest dillərini təbii dillər sırasında qəbul edir. BMT bu əlamətdar tarixi təsis edərkən eşitmə imkanları məhdud olan insanların hüquq və azadlıqlarının qorunmasında jest dillərinin rolunu vurğulamağı və diqqəti buna cəlb etməyi hədəfə alıb. Bu, həm də cəmiyyətin davamlı inkişaf proqramının, insanların hüquq və azadlıqlarının, o cümlədən dil və mədəni müxtəlifliklərinin qorunması ilə bağlı prinsiplərə nail olmaqda atılan mühüm addımlardır. Tarixin seçilməsi isə Ümumdünya Lal-Karlar Federasiyasının təsis günü ilə bağlıdır. Bu, həmçinin 1958-ci ildən sentyabrın sonuncu həftəsi qeyd edilən Beynəlxalq Lal-Karlar Günü ilə üst-üstə düşür.



Nitq və eşitmə qabiliyyəti tam məhdud olan insanlar üçün ilk məktəbin əsasını 1760-cı ildə Parisdə rahib de Lepe qoyub. O, mimikalarla danışıq üsulunun banisi, jest dilinin tərəfdarı olub. Danışa və eşidə bilməyənlərin qapalı və ünsiyyətsiz olduqları barədə deyilənlər həqiqətə uyğun deyil. Çünki dünyada məşhur olan onlarca belə insanın adını sadalamaq mümkündür. Məsələn, İntibah dövrünün şairi Pyerde Ronsarı “fransız şairlərinin şahzadəsi” adlandırırdılar, o, həm də gözəl qılınc oynadan və rəqqas idi. Məşhur “Pis eşitməklə sarayda heç nəyə nail ola bilməzsən” frazası ona məxsusdur.

Tarixdə başqa məşhurların da adı var. Fransız yazıçısı Viktor Hüqo, bəstəkar Lüdviq van Bethoven, italyan rəssamı Antonio Stanoli, fransız heykəltəraşı Klod-Andre Desen, fransız filosofu və yazıçısı Jan Jak Russo kimi bir çox məşhur şəxsiyyətlərin adlarını çəkmək olar. Beynəlxalq Lal-Karlar Federasiyası eşitmə pozğunluğundan əziyyət çəkən insanların problemlərinə siyasətçi, hakimiyyət nümayəndələri, kütləvi-informasiya vasitələri və ictimaiyyətin diqqətini yönəltmək üçün müxtəlif tədbirlər keçirməyə çağırır.

Azərbaycanda da kifayət qədər eşitmə və nitq qüsurlu şəxslər var. Dövlət Statistika Komitəsinin 2024-cü ilə verdiyi məlumata görə, ölkəmizdə 12 mindən çox eşitmə və nitq qabiliyyəti məhdud olan insan yaşayır. Dövlət tərəfindən lal-kar uşaqların cəmiyyətə inteqrasiyası üçün müəyyən işlər görülür. Ölkəmizdə belə məktəb ilk dəfə 1932-ci ildə Bakıda fəaliyyətə başlayıb. 1969-cu ildə isə ikinci məktəb açılıb. Məktəblərdən biri 1, digəri isə 3 nömrəli Respublika Xüsusi İnternat Məktəbi adlandırılıb. 2012-ci ildə Nazirlər Kabinetinin qərarilə 1 və 3 nömrəli məktəblər birləşdirilərək onların bazasında 3 nömrəli Respublika Xüsusi İnternat Məktəbi yaradılıb. Məktəbdə “Bacarıqlı əllər”, dama, futbol, rəsm dərnəkləri var. Bununla yanaşı, məktəbin şagirdlərindən ibarət rəqs qrupu da mövcuddur.



Azərbaycan Karlar Cəmiyyəti 1929-cu ildən fəaliyyət göstərir. Cəmiyyətin prezidenti Bəhrəm Hüseynov bildirdi ki, bunun üçün bölgələrdə yerli təşkilatlar yaradılıb, bir cox ali təhsil ocaqlarında oxuyan tələbələrə jest dili təlimləri keçirilir:

– Azərbaycan Karlar Cəmiyyətinin 13 şəhər və regional nümayəndəliyi mövcuddur. Cəmiyyətin üzvləri ilə tez-tez görüşlər keçirilir, bölgələrdə onların problemlərinin həlli istiqamətində fikir mübadiləsi aparılır, masa arxasında bir cox məsələlər müzakirə edilir. Bununla da eşitmə və nitq qabiliyyəti məhdud şəxslərin təhsil, peşə və asudə vaxtlarının səmərəli keçirilməsi üçün tədbirlər planı hazırlanır. Bu ilin sonunda bəzi regionlarda nümayəndəlik və mədəniyyət evlərinin açılışı da nəzərdə tutulur.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycan Respublikasının məcəllələrinə bəzi dəyişikliklər edilməsi ilə bağlı Qanun imzalayıb. Dəyişikliyə əsasən, məcəllələrdə mövcud olan bir sıra sözlərlə yanaşı, “lal və kar" sözləri də “nitq və eşitmə qabiliyyəti tam məhdud olan” ifadələrlə əvəz olunub. Məhz bu səbəbdən "Beynəlxalq Lal-Karlar Günü" və "Azərbaycan Karlar Cəmiyyəti" kimi ifadələr müvafiq sözlərlə əvəz edilsə daha uyğun olardı.

Tanrı bəzi insanlara eşitmək, danışmaq qabiliyyəti verməsə də, əvəzində onlara daha güclü yaddaş və hissiyyat verib. Onların yeganə fərqi danışa və eşidə bilməməsidir. İnsanların həssas münasibəti, lazımi qayğı və diqqəti isə bu şəxslərə çətinlikləri aşmaqda olduqca gərəklidir.

***Elenora HƏSƏNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 208 (30902) 28 sentyabr 2025-ci il, bazar

# Azad Qarabağda Anım Gününün “Zəfər zəngi”

**Bü günlər şanlı hərb tariximizin qələbə salnamələrinin fəxrlə, qürurla vərəqləndiyi günlərdir. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı Sərəncama əsasən, 27 sentyabr canlarını Vətənimizin azadlığı uğrunda qurban vermiş müqəddəs şəhidlərimizin xatirəsinin Anım Günü kimi ölkəmizin hər yerində qeyd edilir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman oğullarımızın yurdumuza göz dikən, əzəli torpaqlarımızda at oynadan mənfur düşmənə qarşı başlatdıqları 44 günlük zəfər yürüşünün 5-ci ildönümü onların canları, qanları bahasına azadlığına qovuşdurduqları Qarabağımızda – Xocalıda, Xankəndidə, Ağdərədə də ehtiramla anılıb.**




Anım tədbirlərinə sentyabrın 26-da Xocalı şəhərindəki Şəhidlər xiyabanından start verilib. Azərbaycan Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Xocalı rayon polis şöbəsinin əməkdaşlarının, şəhid ailələrinin, müharibə veteranlarının iştirak etdikləri mərasimdə soyqırımı qurbanlarının, Xocalı şəhidlərinin xatirələri bir dəqiqəlik sükutla yad olunub, məzarları üzərinə gül dəstələri düzülüb, dualar oxunub.





Çıxış edənlər 2020-ci ildə sentyabrın 27-də başlayan Vətən müharibəsindən, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərdən söz açıblar. Qeyd olunub ki, şanlı qələbələrin davamı olaraq 2023-cü ildə keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib. Hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, illərlə doğma yurd-yuvalarından didərgin düşmüş keçmiş məcburi köçkünlərin mərhələli şəkildə geri dönüşü təmin olunur. “Böyük Qayıdış” proqramı çərçivəsində Xocalı şəhəri ilə yanaşı, rayonun kəndlərinə də mərhələli şəkildə köç həyata keçirilir.

Anım Günü ilə bağlı tədbirlərin davamı olaraq, sentyabrın 27-də Xankəndi şəhərində, Qarabağ Universitetinin binasında 44 günlük Vətən müharibəsinin 5-ci ildönümünə həsr olunmuş “Zəfər zəngi” adlı sənədli filmin təqdimatı keçirilib. Filmin ssenari müəllifi, Əməkdar jurnalist Afət Telmanqızı çıxış edərək, məhz Xankəndidə qəhrəmanlarımızın şücaətinə həsr olunmuş filmin nümayişinin onda böyük qürur hissi yaşatdığını deyib: “44 gün 30 illik həsrətin sonu, Zəfərin başlanğıcı oldu. 44 gün xalqımız bir ürəyə, bir yumruğa çevrildi. Minlərlə igidimiz öz canını sipər edərək, torpaqlarımızı azad etdi. Şəhidlərimizin qanı ilə yazılan bu tarix ordumuzun gücü, xalqımızın birliyi ilə qazanıldı. Bu gün ayaq basdığımız torpaqlarımız, Vətənimiz azaddır. Artıq dövlət suverenliyimiz tam, ərazilərimiz bütöv, sərhədlərimiz toxunulmazdır. Yaşasın Zəfərimiz, yaşasın Azərbaycan!”.



Şəhid atası, Xankəndi sakini Kamran Nəsirov oğlu Xəqaninin keçdiyi döyüş yolundan, şəhidlərimizin canları bahasına azad etdikləri torpaqda qürurla yaşadığından danışıb. Xüsusi təyinatlı qazi Aslan Şərifov isə bu gün ilk dəfə azad etdiyi Xankəndiyə ayaq basmasından söz açıb, o günlərlə bağlı xatirələrini bölüşüb.

Tədbirdə, həmçinin Xankəndi, Ağdərə və Xocalıda həyata keçirilən bərpa-quruculuq işlərini, dövlət başçısının iştirak etdiyi açılışları, bu ərazilərə Böyük Qayıdışı əks etdirən videoçarx nümayiş olunub.

Anım Günü Xocalı rayonunun Ballıca kəndində ağacəkmə aksiyası da təşkil olunub. Şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədilə keçirilən aksiyada müxtəlif dövlət qurumlarının əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər və yerli ictimaiyyətin üzvləri iştirak ediblər. Aksiya çərçivəsində ümumilikdə 200-dən çox çinar, şam, zeytun və badam ağacları əkilib.

Qeyd edək ki, 44 günlük Zəfər yürüşünün başlamasının 5-ci ildönümü və şəhidlərimizin müqəddəs xatirələrinin Anım Günü işğaldan azad edilmiş Ağdam və Laçın şəhərlərində də ehtiramla qeyd edilib.

***R.MAHİR,***
***XQ-nin Qarabağ müxbiri***
**Xankəndi**

## İDMAN

### III MDB Oyunlarında ilk medallarımız




**III MDB Oyunları çərçivəsində keçirilən stolüstü tennisçilər arasında komanda yarışlarında Azərbaycanın oğlanlardan və qızlardan ibarət milliləri gümüş medal qazanıblar.**

Hər iki komanda final görüşündə Rusiya millisinə uduzub. Həm oğlanlardan, həm də qızlardan ibarət komandalar rəqiblərinə 0:2 hesabı ilə məğlub olublar.

Qızlar arasında fərdi yarışların yarımfinalında özbəkistanlı rəqibi Məftunə Gulimovanı 3:0 hesabı ilə məğlub edən Mərziyə Nurmətova finala yüksəlib.

Digər idmançımız Yağmur Məmmədli isə yarımfinalda rusiyalı rəqibi Alina İlimbetovaya uduzub – 1:3.

Qeyd edək ki, komanda, şəxsi, qoşa və qarışıq - qoşa növləri üzrə keçirilən stolüstü tennis yarışlarına sentyabrın 29-da yekun vurulacaq.

### Azərbaycan–Tacikistan 1:0



**Dünən Qəbələ şəhər stadionunda Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarının proqramına uyğun olaraq, futbol yarışlarına start verilib.**

Birinciliyin ilk oyununda Aqil Nəbiyevin başçılıq etdiyi Azərbaycan (U-16) millisi Tacikistanın U-16 komandası ilə qarşılaşıb.

Oyundan əvvəl Azərbaycanın Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Oyun millimizin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Qarşılaşmada qolu 29-cu dəqiqədə Xəzər Hüseynzadə vurub.

### VI turun 2 oyunu




Misli Premyer Liqasında dünən VI tur çərçivəsində daha iki oyun keçirilib. “Şamaxı” doğma azarkeşlər önündə “Araz-Naxçıvan”ı qəbul edib.

Şamaxı şəhər stadionunda baş tutan görüş 1:1 hesabı ilə başa çatıb.

“Neftçi” Bakıda “Karvan-Yevlax”ı qəbul edib. “Neftçi Arena”da keçirilən qarşılaşmada da heç-heçə qeydə alınıb.

Xəbər verdiyimiz kimi, turun əvvəlki oyunlarında “İmişli” “Zirə” ilə heç-heçə edib - 1:1, “Qarabağ” isə “Qəbələ”yə qalib gəlib – 2:0.

Turun digər iki oyunu sabah baş tutacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

*29 Sentyabr Turizm İşçilərinin Peşə Günüdür*

# Azərbaycan gözəlliklər ölkəsidir



**Bütün fəsillərdə, eləcə də uzunmüddətli tətil günlərində insanlar istirahət haqqında fikirləşir. Ən əsası, bu, hər birimizi düşündürür: hara üz tutmalı. Müşahidələrimizə görə, paytaxt əhalisinin əksəriyyəti respublikamızın füsunkar təbiəti olan bölgələrimizə üstünlük verir. Gəncənin Hacıkəndini, “Cənub mirvarisi” adlandırılan Lənkəranı, Qubanın Xınalığını, İsmayıllının Lahıcını, Qəbələnin Vəndamını, Qaxın İlisu, Zaqatalanın qədim Car kəndini necə gedib görməyəsən? Cənnətməkanımız Azərbaycanın o qədər görməli-gəzməli yerləri var ki, bu yerlər insanın sanki ruhunu təzələyir, ilham verir.**

Turizm dünyanın, o cümlədən ölkəmizin ən perspektivli sahələrindən biridir. Ölkə turizminin inkişafı Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir və bu sahədə böyük uğurlar əldə edilib, bütün infrastruktur yaradılıb. Respublikamızın təbii sərvətləri, rəngarəng iqlimi turizm yaratmaq üçün geniş imkanlar açır.

2016-cı ildən başlayaraq ölkəmizdə sentyabrın 27-si “Turizm işçiləri günü” kimi qeyd olunurdusa, Prezident İlham Əliyevin 19 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən, turizm işçiləri hər il sentyabr ayının 29-nu peşə bayramı günü kimi qarşılayırlar.

Respublikamız öz təbiəti, tarixi abidələri ilə turizmin inkişafı üçün olduqca perspektivli məkandır və buna görə də ölkəmiz müstəqillik yoluna qədəm qoyduqdan sonra bu sahəyə dövlətimiz tərəfindən xüsusi qayğı göstərilir. Əsrarəngiz təbiətimiz, gözəl iqlim şəraiti bu ölkəyə gələn turistləri əsl mənada heyran edir.

Azərbaycan turizmin müxtəlif növləri üçün əlverişli şəraitə və müvafiq infrastruktura malik ölkədir. Turizm hər zaman sosial, iqtisadi, mədəni və ekoloji əhəmiyyəti ilə seçilən mühüm fəaliyyət sahələrindən biri olmuşdur. Bu da onu dünyada ən sürətlə böyüyən və dinamik inkişaf edən sektorlardan birinə çevirmişdir. Bu sahənin inkişafı istər dövlətlərarası beynəlxalq əlaqələrin miqyasına, istər qarşılıqlı maliyyə axınına əsaslı təsir etmiş, istərsə də müxtəlif mədəni abidələrin, təbii gözəlliklərin kəşfinə və qorunmasına şərait yaratmışdır.

Təqdirəlayiq haldır ki, son illər ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya təmin edilib. Respublikamız turizmlə bağlı reytinq cədvəllərində də öndəgedən ölkələr sırasındadır. Digər bölgələrimizlə yanaşı, azad edilmiş Qarabağ torpaqları bütün imkanları ilə ən vacib regionlarından biridir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağın turizm potensialı kifayət qədər genişdir.

44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun işğal altındakı torpaqlarımızı düşməndən azad etməsi xalqımızda böyük ruh yüksəkliyi yaratdığı kimi, ölkəmizin iqtisadi inkişafı üçün də yeni perspektivlər açdı. Bu mənada, azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi daha cəlbedici görünür.

Bu gün bir tərəfdən Qarabağın tarixi görkəmi özünə qaytarılır, digər tərəfdən yaşayış üçün ən müasir infrastruktur qurulur, turizmin potensialı yaradılır. Azərbaycanın Qələbəsi xalqımızın qurub-yaratmaq əzmini də ortaya qoyub. Belə ki, Qarabağda bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu torpağın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət və məşhur turizm mərkəzi olacağını deməyə əsas verir. Qarabağın və ətraf rayonların işğaldan azad olunması ölkənin turizm potensialını daha da artırıb. Əlverişli iqtisadi-coğrafi mövqeyi, zəngin ehtiyatlara, nadir təbii iqlim xüsusiyyətlərinə malik olması, münbit torpağı, zəngin flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün yeni üfüqlər açıb.

Bu baxımdan, azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi daha cəlbedicidir. Sözsüz ki, dövlətimizin Qarabağın təhlükəsiz zonaya çevrilməsi istiqamətində ötən 5 ildə həyata keçirdiyi tədbirlər bu ərazidə turizm infrastrukturunun formalaşması və inkişafında mühüm rol oynayacaq. Bununla da Qarabağın turizm potensialı ilə bağlı dünyaya çatdırılan yeni reallıqlar ölkəmizə əlavə investisiyaların cəlb olunması yollarını açacaq.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə səfərlərində dəfələrlə vurğulamışdır ki, biz erməni vandallarının darmadağın etdiyi şəhər və kəndlərimizi əsl cənnətə çevirəcəyik. Sözsüz ki, işğaldan azad edilmiş torpaqlarımız bölgənin turizm imkanlarının artırılmasında mühüm faktordur.

Cənnətməkan Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin bir çox növü - eko, dağ, qış, ov və sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar var. Qarabağ bölgəsi turizm baxımından böyük əhəmiyyətə malik Azərbaycanın yaşıllıqlarla zəngin olan bir ərazisidir. Belə bir unikal təbii iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizminin də inkişafı deməkdir. Burada kənd infrastrukturunun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması bölgə kəndlərini şəhərli turistlər üçün sevimli istirahət məkanı edəcək. Düşmənin uzun illər ərzində işğal altında olan Qarabağ və ətraf rayonların infrastrukturunu məhv edərək dağıtmasına baxmayaraq, bu bölgə Azərbaycanın əsas turizm mərkəzinə çevriləcək. Sahə mütəxəssisləri də bu fikirdədirlər ki, yaxın gələcəkdə Qarabağ bölgəsinin turizm infrastrukturunun yaradılması və inkişafı üçün keçmiş ənənələr də əhəmiyyətli rol oynayacaq.

İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan Qarabağ sözsüz ki, yaxın illərdə bu bölgənin və ölkə turizminin inkişafına güclü təkan verəcək. Əzəli torpaqlarımız - şəhər və kəndlərimiz əsl cənnətə çevriləcək. Təbii ki, yaxın gələcəkdə bu yerlərə böyük turist axınına səbəb olacaq.

***Müşfiq MİRZƏ***
***XQ***

## *HAVA*

# Bakıda yağmursuz, rayonlarda yağış, dolu, qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı, səhər tədricən kəsiləcəyi, gün ərzində havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 14-16, gündüz 18-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət isə 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüzdən əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 12-16, gündüz 18-22, dağlarda gecə 1-5, gündüz 5-8 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3528
SİFARİŞ 1945
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00